

“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 187 (5907) **11 oktyabr** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# “Azərbaycan və Türkmənistanı tarixi dostluq əlaqələri birləşdirir”

*Aşqabadda Azərbaycan və Türkmənistan prezidentlərinin görüşü olub*



Səh 2

5

**Bakıda Rus Kitab Evinin 10 illik yubileyi qeyd olunub**



6

**YAP İcra Katibliyində “Qarabağ Azərbaycandır! Münaqişənin həlli perspektivləri” mövzusunda dəyirmi masa keçirilib**



8

**Əli Kərimlinin yaxın adamının səs yazısı: “Heç kim gəlmir, biabır oluruq”**



# "Azərbaycan və Türkmənistanı tarixi dostluq əlaqələri birləşdirir"

*Aşqabadda Azərbaycan və Türkmənistan prezidentlərinin görüşü olub*



***Oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Türkmənistana işgüzar səfərə gəlib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Aşqabad Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi MDB İcraiyyə Komitəsinin sədri-icra katibi aparatının rəhbəri Sergey Burutin, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Esenmurad Orazgeldiyev və digər yüksək vəzifəli şəxslər qarşılayıblar.***

Oktyabrın 10-da Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Prezident İlham Əliyev, Prezident Qurbanqulu Berdiməhəmmədov və MDB İcraiyyə Komitəsinin sədri-icra katibi Sergey Lebedev birgə foto çəkdirdilər. Sonra Prezident İlham Əliyevin və Prezident Qurbanqulu Berdiməhəmmədovun görüşü oldu.

Prezident Qurbanqulu Berdiməhəmmədov:

-İlham Heydər oğlu, icazə verin Sizi Türkmənistanda, Aşqabadda salamlayım və bizim dəvətimizi qəbul edib MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün gəldiyinizə görə Sizə dərin təşəkkürümü bildirim. Düşünürəm ki, xalqlarımızın rifahı naminə tərəfdaşlığın səmərəliliyini artırmaq üçün yaxşı imkanımız olacaq. Sizi bir daha salamlayıram. Xoş gəlmisiniz!

Prezident İlham Əliyev:

-Sağ olun, hörmətli Qurbanqulu Məlikquluyeviç. Dəvət üçün sağ olun. Göstərilən qonaqpərvərliyə görə sağ olun. Qardaş Türkmənistan torpağına gəlməyə həmişə şadıq. Mənim keçənilki səfərimi, sizinlə görüşümü və imzaladığımız sənədləri xatırlayıram. Düşünürəm ki, o vaxt biz rekord göstərdik, 20-dən çox sənəd imzaladıq. Bu, iki qonşu ölkə arasında münasibətlərin xarakterini və ruhunu əks etdirir. Əlbəttə, MDB dövlət başçılarının sabahkı Zirvə Görüşü çoxtərəfli əməkdaşlığın daha da möhkəmlənməsi üçün böyük əhəmiyyət kəsb edir. Bu mühüm beynəlxalq tədbirin gözəl təşkil edilməsi münasibətilə Sizi təbrik etmək, Sizə, qardaş Türkmənistan xalqına ən xoş arzularımı bildirmək, yeni zəfərlər, qələbələr diləmək istərdim.

Prezident Qurbanqulu Berdiməhəmmədov:

- Sağ olun, İlham Heydər oğlu. Mən, həmçinin Xəzəryanı ölkələrin Birinci İqtisadi Forumuna verdiyiniz dəstəyə və onun işində fəal iştirak etdiyinizə görə Sizə dərin təşəkkürümü bildirmək istərdim. Siz bilirsiniz ki, forum sərgi ilə də müşayiət olundu. Sizin ölkənizin demək olar ki, hamının diqqətini cəlb edən yaxşı stendi var idi. Siz bu forumun keçirilməsində də böyük rol oynamısınız. Ona görə, icazə verin bu həssas diqqətə və yaxşı iştiraka görə Sizə təşəkkürümü bildirim. Bu, bizim ortaq təşəbbüsümüz idi, ümumiyyətlə, ideya genişdir. Sizə açıq deməliyəm, orada iki ölkə fəal iştirak edib - Türkmənistan və Azərbaycan. Əsas diqqət məhz tranzit-nəqliyyat dəhlizləri məsələlərinə ayrılmışdı. Beləliklə, icazə verin bir daha Sizə təşəkkürümü bildirim.

Prezident İlham Əliyev: Çox sağ olun.



# İlham Əliyev: "Moldova bizə yaxın, dost dövlətdir"

*Azərbaycan Prezidenti İlham Əliyev Moldova Prezidenti İqor Dodon ilə görüşüb*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Aşqabadda Moldova Respublikasının Prezidenti İqor Dodon ilə görüşüb. Prezident İqor Dodonu salamlayan Prezident İlham Əliyev dedi:***

- İqor Nikolayeviç, Sizi görməyimə şadam. Bizim ikitərəfli gündəliyimizə dair fikir mübadiləsi üçün yaxşı imkan yaranıb. Mən bizim görüşlərimizi, o cümlədən Bakıdakı görüşümüzü xatırlayıram. O vaxt biz ikitərəfli əməkdaşlığın geniş spektrini müzakirə etdik, münasibətlərimizin inkişafına ciddi təkan verdik. Sıx qarşılıqlı fəaliyyətin davam edəcəyinə ümid bəsləyirik. Bizim fəal əməkdaşlıq edə biləcəyimiz mövzular, sahələr çoxdur. Əsas odur ki, ölkələrimiz arasında dostluq münasibətləri həm ticari-iqtisadi sahədə, həm investisiya sferasında və bütün başqa sahələrdə qarşılıqlı fəaliyyəti inkişaf etdirmək üçün yaxşı bazadır. Moldova bizə yaxın, dost dövlətdir. Düşünürəm ki, bugünkü fikir mübadiləsi də faydalı olacaq. Zənnimcə, əlaqələrimizin inkişafına yeni təkan verəcəyik.

Prezident İqor Dodon:

-Hörmətli İlham Heydər oğlu, hörmətli dostlar. Əvvələn, bizim ikitərəfli münasibətlərimiz barədə Sizinlə yenidən fikir mübadiləsi aparmaq imkanına görə çox şadam. Bu ilin mart ayında Qlobal Forumda iştirak etməyimi xatırlayıram. Mən bu forumda artıq iki dəfə iştirak etmişəm və gələn il də iştirak etməyi planlaşdırıram. Qeyd etmək istəyirəm ki, bütün istiqamətlər üzrə işlərimiz yaxşı gedir. Sonuncu dəfə Bakıda Sizinlə söhbət zamanı mən demişdim ki, yaxın vaxtlarda Hökumətlərarası Komissiyanın tərkibi yenilənəcək. Dünən Moldova hökuməti İqtisadiyyat nazirini Moldova tərəfdən Hökumətlərarası Komissiyanın həmsədri təsdiq edib. Buna görə ümid edirəm ki, yaxın vaxtlarda Hökumətlərarası Komissiyanın iclası keçiriləcək. Sonuncu iclas 2012-ci ildə olub. Yəni, artıq 7 il keçib və bu müddətdə komissiya işləməyib.



Bir neçə həftə bundan əvvəl mən Sizə rəsmi dəvət məktubu göndərmişəm. Bu gün biz Moldova Respublikasına Sizin rəsmi səfərinizin mümkünlüyünü və hökumətlərarası komissiyanın iclasa hazırlıq məqsədilə həmsədrlərin görüşünün Kişineuda keçirilməsini müzakirə edəcəyik.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Çox sağ olun.

# İlham Əliyev: "Türkiyə-Azərbaycan qardaşlığı, birliyi sarsılmazdır"

*Prezident İlham Əliyev Türkiyənin Təhsil nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Türkiyə Respublikasının Təhsil naziri Ziya Selçukun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev diqqətə çatdırıb ki, Türkiyə-Azərbaycan əlaqələri bütün sahələrdə ən yüksək zirvədədir:**



-Xoş gəlmisiniz. Sizi görməyimə şadam. Əminəm ki, səfəriniz uğurlu olacaq və təhsil sektorundakı əməkdaşlığımız davam edəcək.

Bildiyiniz kimi, Türkiyə-Azərbaycan əlaqələri bütün sahələrdə ən yüksək zirvədədir. Elə bir sahə yoxdur ki, biz o sahədə əməkdaşlıq etməyək. O cümlədən sizin rəhbərlik etdiyiniz sahə də həm bu gün üçün, həm də gələcək üçün çox önəmlidir ki, gələcək nəsillərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alsınlar, bilikli savadlı olsunlar və gələcəkdə ölkələrimizin inkişafında fəal olsunlar. Sizi səmimiyyətlə salamlayıram. Türkiyə-Azərbaycan qardaşlığı, birliyi sarsılmazdır. Biz bütün sahələrdə - həm siyasi sahədə, həm də iqtisadi, nəqliyyat, enerji, mədəniyyət, təhsil sahələrində gözəl nəticələri görürük.

Bildiyiniz kimi, bir neçə gündən sonra Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü keçiriləcək. Biz bu görüşə ciddi hazırlaşırıq və əminəm ki, qəbul ediləcək qərarlar türkdilli dövlətlərin birliyini daha da möhkəmləndirəcək. Sizi bir daha salamlayıram. Xoş gəlmisiniz.

x x x

Türkiyənin Təhsil naziri Ziya Selçuk:

-Təşəkkür edirəm. Zati-alinizin bizi qəbul etməsindən böyük məmnunluq duyuruq. Çox minnətdaram, sağ olun. Cənab Prezidentimizin salamlarını çatdırmaq istərdim.

Prezident İlham Əliyev: Sağ olun. Mənim də salamlarımı çatdırın.

Ziya Selçuk: Prezidentimiz Sizə olan dost münasibətini hər zaman ifadə edir. "Bir millət, iki dövlət" şüarının daim vurğulandığı və bu məsələnin əhəmiyyəti barədə danışıldığı da Sizə məlumdur.

Zati-alinizin Türkiyə vətəndaşları üçün viza rejiminin ləğvi barədə qərarı Türkiyədə böyük bir sevinc hissi yaradıb. Bunu, cənab Prezident, Sizə çatdırmaq istəyirəm. Mükəmməl səviyyədə olan əməkdaşlığımız hamımızı sevindirir. Həm vətəndaşlarımızın ünsiyyətinin artması, həm tələbələrin Türkiyəyə təhsil almağa gəlmələri, həm də Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi əməkdaşlığın genişlənməsi hamımızı çox məmnun edir.

x x x

Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla onu qardaşlıq münasibətlərinin bağladığını dedi. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanla Türkiyə arasında böyük sərvətimiz olan dostluq və qardaşlığımızı möhkəm iş birliyinə çevirməyə nail olmuşuq. Prezident İlham Əliyev bildirdi ki, dünya miqyasında Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ölkələr yoxdur.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçən il Bakıda hərbi paradın keçirildiyini, Azərbaycan və Türkiyə hərbçilərinin çiyin-çiyinə Bakının mərkəzində təntənəli keçid etdiklərini xatırladaraq, xalqlarımızın bunu böyük fəxr hissi ilə izlədiyini bildirdi. Görüşdə ali və peşə təhsili sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev Avstriyanın Nəqliyyat, İnnovasiya və Texnologiya nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Avstriyanın Federal Nəqliyyat, İnnovasiya və Texnologiya naziri Andreas Rayxhardtın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev dedi:**



-Sizi yenidən görməyimə çox şadam. Mən bizim Vyanadakı görüşümüzü xatırlayıram, çox səmərəli və çox ümidverici idi. Ümidvaram ki, Azərbaycana səfəriniz çox uğurlu olacaq, biz sıx əməkdaşlığımızı davam etdirəcəyik. Mən cənab Prezidentlə, Baş Nazirlə görüşümü xatırlayıram. Bildiyiniz kimi, çox səmimi və mehriban görüş idi. Düşünürəm ki, bu, çox mühüm şəxsi təmas idi. Biz bir daha ölkələrimiz arasındakı əməkdaşlığa verdiyimiz böyük əhəmiyyəti və tərəfdaşlığı genişləndirməyə hazır olduğumuzu qeyd etdik.

Siz də bildiyiniz kimi, ölkənizdən olan bir çox şirkətlər müxtəlif sahələrdə bizim tərəfdaşlarımızdır. Mənim Baş Nazirə dediyim kimi, onlar Azərbaycandakı tikinti layihələrində mühüm rol oynayıblar. Onlar yeni memarlıq üslubu baxımından, eləcə də infrastruktur sahəsində çox yaradıcıdırlar. Mən, həmçinin şadam ki, hazırda biz sizin məsul olduğunuz nəqliyyat sektorunda əməkdaşlığın fəal mərhələsindəyik və bizim hazırda Avropa ilə Asiyanı birləşdirmək planlarımız həyata keçirilir. Biz bu istiqamətdə yaxşı nəticələrə, yaxşı irəliləyişə nail olmuşuq. Şərq-Qərb dəhlizi fəaliyyət göstərir. Biz Çindən, Mərkəzi Asiyadan yüklər qəbul edirik və sizin burada Azərbaycanda infrastrukturla bağlı gördüyünüz bütün işlər hazırda iqtisadi tərəfdaşlıq və birlik işinə xidmət edir.

Bildiyiniz kimi, Azərbaycan nəqliyyat sektoruna böyük həcmdə investisiya yatırıb. Altı beynəlxalq hava limanı, müasir dəmir yolu sistemi, yeni magistral yollar, Xəzər dənizində ən böyük dəniz limanı, əlbəttə ki, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi, Şimal-Cənub nəqliyyat dəhlizi və həmçinin bu il biz artıq Şimaldan Qərb istiqamətində gedən yükləri qəbul etməyə başlamışıq. Beləliklə, indi söhbət Şimal-Qərb dəhlizindən gedir. Azərbaycan bu layihədə çox mühüm rol oynayır, çünki biz Şimal-Cənub və Şərq-Qərb dəhlizlərində iştirak edirik. Nəqliyyat sektoru gələcək iqtisadi inkişafın hərəkətverici qüvvəsi olacaq sahələrdən birinə çevrilir. Mən bilirəm ki, bizim dəmir yolları qurumumuz avstriyalı həmkarları ilə yaxşı təmaslar qurub. Bunlar çox ümidverici addımlardır. Əminəm ki, Azərbaycana səfəriniz ərzində bütün bu məsələlər geniş şəkildə müzakirə ediləcək və biz atmalı olduğumuz yeni addımları müəyyənləşdirəcəyik. Bir daha xoş gəlmisiniz.

Avstriyanın Federal Nəqliyyat, İnnovasiya və Texnologiya naziri Andreas Rayxhardt:

-Cənab Prezident, dostcasına dediyiniz sözlərə görə Sizə təşəkkür edirəm. Ötən dəfə biz Vyanada görüşmüşdük. O vaxt mən nazir müavini idim, indi nazirəm, lakin mövzular dəyişməyib. Biz hələ də iqtisadi sahələrimizi yaxınlaşdırmağa və birgə layihələri inkişaf etdirməyə çalışırıq. Ötən dəfə Vyanada müzakirə etdiyimiz kimi, vəzifəmiz bəzi layihələrə bağlı konkret ideyaları inkişaf etdirmək və Avstriyanın dünyada məşhur texnologiya şirkətlərini Azərbaycana gətirməkdir. Bir qədər sonra biz Sizə bəzi konkret ideyaları təqdim etmək istəyirik. Bizim burada kiçik, lakin rəqabət qabiliyyəti çox yüksək olan biznes nümayəndə heyətimiz var. Bizim bu gün və sabah ikitərəfli görüşlərimiz olacaq.

# 1998-Cİ İL 11 OKTYABR

*Həyatının mənasını xalqına və dövlətinə xidmətdə görən Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə Azərbaycan Prezidenti seçildiyi tarixi gün*

***1998-ci il oktyabrın 11-də Azərbaycanda növbəti prezident seçkiləri keçirilib. Ulu Öndər Heydər Əliyev xalqın yüksək fəallığı şəraitində keçən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib. Əgər 1993-cü il seçkiləri Azərbaycan dövlətçiliyinin ciddi sınaq mərhələsi idisə, 1998-ci il seçkiləri artıq formalaşan dövlətimizin imtahanı sayılırdı.***

Həyatının mənasını xalqına və dövlətinə xidmətdə görən Ulu Öndərin müstəqil gənc respublikamıza rəhbərlik etdiyi dövrdə gördüyü əvəzsiz işlər, Azərbaycanı çox qısa müddətdə, beynəlxalq arenada böyük nüfuza və söz sahibinə malik bir ölkəyə çevirdi.

Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan xalqının tarix boyu yetişdirdiyi nadir və bənzərsiz şəxsiyyətlərdən olaraq milyonlarla insanın qəlbində əbədi yaşayır. Həyatının mənasını xalqa və dövlətə xidmətdə görən Ulu Öndərimiz bu müqəddəs amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərən millət fədaisi kimi, daim böyük ehtiramla və rəğbətlə xatırlanır. Xalqı və Vətəni qarşısında misilsiz xidmətlərinə və müstəsna tarixi roluna görə, Ulu Öndəri dünya miqyaslı siyasi nəhənglərlə müqayisə edirlər. Çünki O, Azərbaycan xalqının həqiqi Lideri və Xilaskarı kimi şərəfli missiyanı böyük əzm və şərəflə yerinə yetirmişdir. Bütün ömrünü Azərbaycanın tərəqqisinə sərf edən bu müdrik insan demişdir: "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır".

Ulu Öndər respublikamıza rəhbərlik etdiyi illər ərzində böyük elmi, intellektual kadr, iqtisadi və enerji potensialı yaradılmasına nail olmuş, ölkəmizin müstəqil yaşaması üçün möhkəm təməl qoymuşdur. Məhz buna görə Azərbaycan xalqı qazandığı müstəqilliyə və onun qorunub-saxlanması sahəsində əldə etdiyi bütün nailiyyətlərə görə Dahi Oğluna daim minnətdardır. Ulu Öndər yenidən hakimiyyətə qayıdarkən, heç bir ölkə başçısının dilinə gətirmədiyi bu sözləri dedi: "Mənim həyatım xalqa məxsusdur və bundan sonra ömrümün qalan hissəsini də xalq üçün əsirgəməyəcəyəm. Həyatımın mənasını ancaq xalqa xidmət etməkdə görürəm. Mənim üçün ən böyük mükafat bundan sonra da xalqın etimadını doğrultmaqdan ibarətdir".

Azərbaycan xalqının suverenlik arzusunu reallığa çevirmiş, böyük qurbanlar bahasına əldə olunmuş müstəqilliyi zamanın çətin sınaqlarından çıxararaq, qoruyub-saxlamışdır. Azərbaycan xalqı öz Böyük LİDERİ Heydər Əliyevi yalnız siyasi Lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qəbul edir. Çünki Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur və ola da bilməz.

## 1969-cu il 14 iyul - Azərbaycanın müasir tarixində dönüş ili

Məlumdur ki, SSRİ məkanında iqtisadiyyatı, elmi-mədəni potensialı və təbii sərvətləri imperiya tərəfindən istismar edilən digər dövlətlər kimi, Azərbaycanda da vəziyyət çox acınacaqlı idi. Məhz bu cür gərgin şəraitdə - 1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi ilə respublikamızda milli şüur istiqamətində yeniləşmə, yeni bir təbəqənin, yeni düşüncə tərzinə malik olan insanların yetişməsi prosesi özünü göstərirdi. Azərbaycanın müasir tarixində dönüş ili hesab olunan 1969-cu ildə respublikanın sosial-iqtisadi və mədəni inkişafı özünün yenidən dirçəliş dövrünə qədəm qoydu.

"Təhsil millətin gələcəyidir" - deyən Ümummilli Lider Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəlişinin ilk günündən onun inkişafına qayğını ön plana çəkərək, təhsilin yüksəlişinə nail olmaq üçün bütün potensial imkanlardan istifadəyə geniş şərait yaratmışdır. Nəticədə, ötən əsrin 70-80-ci illəri Azərbaycan təhsilinin coşqun yüksəliş illəri kimi tarixi yaddaşımıza daxil olmuşdur. Keçmiş SSRİ-nin ali rəhbərliyində çalışdığı 1982-1987-ci illərdə Heydər Əliyev digər sahələrlə



yanaşı, super-dövlətin təhsil sisteminə, eləcə də, SSRİ-də keçirilən ümumi təhsil və peşə məktəbi üzrə islahat prosesinə rəhbərlik etmişdir. 70-80-ci illərdə Heydər Əliyevin qayğısı nəticəsində 350 mindən çox şagird yeri olan 680 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmişdir. 1969-1982-ci illərdə məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1600-dən 1875-ə çatmış, 1979-cu ildə orta məktəblərin şəbəkəsi 1965-ci illə müqayisədə 3 dəfədən çox artmışdır.

Müdrik dövlət başçısının təhsilin inkişafına göstərdiyi misilsiz xidmətlərdən biri də 1970-1980-ci illərdə azərbaycanlı gənclərin keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərinə oxumağa göndərilməsi idi. O vaxt Azərbaycandan kənarda təhsil almağa göndərilmiş, indi xalqımızın fəxrlə "Heydər Əliyevin kadrları" adlandırdığı 15 mindən çox gənc bu gün xalq təsərrüfatının, elm, təhsil və mədəniyyətin müxtəlif sahələrində uğurla çalışırlar. Ulu Öndərimiz hakimiyyətdə olduğu bütün dövrlərdə - 1970-80-ci illərdə, həm də müstəqillik dövründə Azərbaycanın və xalqımızın hərtərəfli inkişafında çox mühüm rol oynayıb. Bu dahi şəxsiyyətin müəyyənləşdirdiyi müdrik siyasi kurs bu gün də, gələcəkdə də dəyişməz olaraq qalacaqdır. Çünki bu siyasət Azərbaycana daim uğur və xoşbəxtlik gətirir. Ulu Öndərimizin siyasəti yaşayır, möhkəmlənir və zənginləşir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə sənayenin, istehsalatın, elmin, təhsilin, mədəniyyətin, bir sözlə, hər bir sahənin əsaslı inkişafına nail olunmuşdu. 1970-ci ildə 1965-ci illə müqayisədə respublikada ümumdaxili məhsul 34 faiz, milli gəlir 33 faiz, sənaye istehsalı 37 faiz, kənd təsərrüfatı 27 faiz, əsaslı vəsait qoyuluşu 43 faiz, əsas istehsal fondları 34 faiz artmışdı. Növbəti illərdə bu inkişaf dinamikası daha da güclənmişdi. Ümumiyyətlə, 1969-cu ilədək Azərbaycanda cəmi 233 iri və orta sənaye müəssisəsi işləyirdisə, 1970-1982-ci illərdə bölgələri də əhatə edən 300-ə yaxın yeni iri və orta sənaye müəssisəsi işə salınmışdı. O, Sovet imperiyası dövründə sərt totalitar rejimin, az da olsa, verdiyi imkanlardan maksimum istifadə edərək, bəzən isə imkanları məhdudlaşdıran qanunlardan məharətlə yan keçərək, Azərbaycanın sosial-iqtisadi, siyasi-mədəni inkişafı, bütövlükdə, onun çiçəklənməsi üçün mümkün olan hər şeyi etmişdir.

## 1994-cü il sentyabrın 20-si - Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft Sazişi

O vaxt ölkəmiz dövlət müstəqilliyini yenicə bərpa etmişdi, Azərbaycan Ermənistanla müharibə şəraitində idi. Bu risk doğuran amillər böyük dövlətləri və şirkətləri Azərbaycana sərmayə yatırmaqda ehtiyatla davranmağa vadar edirdi. Ulu Öndərin beynəlxalq arenadakı şəxsi nüfuzu tərəddüdlərə son qoydu: 1994-cü il sentyabrın 20-də Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqavilələri imzalandı. Sonradan "Əsrin müqaviləsi" adlandırılan bu Saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı, dünya xəritəsindəki mövqeyini möhkəmləndirdi. Azərbaycan artıq bütün dünyada neft ölkəsi olaraq tanınmağa başladı.

## "Xalq - Heydər, Heydər - Xalq" birliyi

Xalq yolunda canını fəda etmiş, bütün həyatı boyu Vətənini və millətini düşünən Ümummilli Lider bugünkü Azərbaycanın sürətli inkişafının təməl daşları da, məhz Heydər Əliyevin qüdrətli əlləri ilə hörülüb. Müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin şah əsəridir. Təsadüfi deyil ki, Ümummilli Liderimiz azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük sənət əsəri olan müstəqil, inkişaf etməkdə olan Azərbaycanın vətəndaşları olmaqdan qürur duyur, Böyük Öndərə sayğı və məhəbbətini Onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.

Xalq növbəti dəfə öz Öndəri, xalqın inam və ümid yeri Heydər Əliyev olduğu üçün 1998-ci il 11 oktyabrda növbəti düzgün seçimini etdi. Ulu Öndər Heydər Əliyevə səs verməklə haqqa, ədalətə, ölkədə sabitliyin qorunmasına, tərəqqiyə səs verəcəklərini bildirdilər. Çünki son 5 ildə "Xalq - Heydər, Heydər - Xalq" ifadəsi prezident və xalq birliyinin möhtəşəm formuluna çevrilmişdi. Özünü Heydər Əliyevə siyasi rəqib kimi göstərmək istəyən müxalifət düşərgəsində də artıq başa düşürdülər ki, növbəti seçkidə də məğlub olacaqlar. Beynəlxalq aləmdə də, hamı əmin idi ki, 1993-cü ilin yayında Azərbaycan xalqını qardaş qırğınından, dövləti isə məhv olmaqdan xilas etmiş Heydər Əliyev növbəti dəfə də prezident seçiləcəkdir.

Həmin dövrdə bəzi qüvvələr müdrik siyasətçinin əleyhinə təbliğat aparsalar da, xalq iradəsi hər şeyə qalib gəldi və Azərbaycan xalqı da 11 oktyabr 1998-ci ildə Ümummilli Lider Heydər Əliyevə səs verdi. 76,1 faiz səslə Ulu Öndər Heydər Əliyev xalqın səsini toplayaraq, yenidən Azərbaycanın Prezidenti seçildi.

Ulu Öndərin ikinci prezidentlik dövründə qazanılmış iqtisadi nailiyyətlər diqqəti cəlb edir. Belə ki, 1997-2002-ci illərdə sənaye məhsulu istehsalı 23,6 faiz, yaxud orta hesabla ildə 3,6 faiz artmışdı. Hasilat sənayesi ilə yanaşı, qeyri-neft sektoru - emal sənayesi də inkişaf edirdi. Göstərilən müddətdə emal sənayesi sahələrində məhsul istehsalı 24 faiz, o cümlədən, yeyinti sənayesində 22 faiz, taxta məmulatı istehsalında 3,5 dəfə, metallurgiya sənayesində 2,5 dəfə artmışdır.

İqtisadiyyatda aparılan islahatlar ölkənin maliyyə vəziyyətinin yaxşılaşmasını, dövlət büdcəsinin gəlirlərinin ildən-ilə artmasını təmin etmişdir. 2002-ci ildə dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü ilə nisbətən 85 dəfə artaraq, 4,6 trilyon manata çatmış, xərcləri isə 72 dəfə artaraq, 4,7 trilyon manat olmuşdu.

Beləliklə, Ulu Öndərin prezidentliyi dövründə Azərbaycan iqtisadiyyatı böhran və tənəzzül məngənəsindən çıxaraq, iqtisadi inkişaf və yüksəliş yoluna qədəm qoymuşdu. Ona görə də, 2003-cü ilin prezident seçkilərində xalq yenidən Heydər Əliyev siyasətinə səs verdi...

## "Hər bir azərbaycanlının Prezidentiyəm"

Bu gün Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları Onun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda çox böyük sürətlə məktəblər, xəstəxanalar və sair obyektlər tikilir, insanları narahat edən əsas məsələlər öz həllini tapır. Ölkəmizin bütün sahələrində gərgin iş gedir və bu işlər Azərbaycanın xoşbəxt gələcəyinə xidmət edir. Azərbaycan yaxın zamanda çox qüdrətli bir ölkəyə çevriləcək, vətəndaşlarımız güclü, azad, sivil və gözəl ölkədə yaşamaqları ilə fəxr edəcəklər.

Hər bir azərbaycanlı fərəh hissi keçirir ki, dövlətimizin idarəçilik sükanı başında Milli Öndər Heydər Əliyevin yetirməsi, Onun yaratdığı siyasi məktəbin davamçısı Möhtərəm Prezidentimiz İlham Əliyev durur. Hər bir azərbaycanlının Prezidenti olacağını qətiyyətlə bildirən və ötən müddət ərzində sözünün, vədinin sahibi olduğunu əməli işi, genişmiqyaslı fəaliyyəti ilə bir daha sübut edən Cənab İlham Əliyevlə xalqımız yeni-yeni müvəffəqiyyətlərə, uğurlara nail olacaq, dövlətçiliyimizin inkişafı və möhkəmləndirilməsi istiqamətində mühüm göstəricilər əldə edəcəkdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin apardığı daxili və xarici siyasət, bir daha sübut edir ki, Ulu Öndərin qətiyyətli səyləri nəticəsində, müstəqilliyi tam təmin olunan dövlətimiz durmadan inkişaf edir, çiçəklənir və qüdrətli dövlətə çevrilir. Dövlət müstəqilliyimiz daim güclənir və Azərbaycan Cənubi Qafqazın lider ölkəsi olmaqla, dünya birliyində fəal mövqe qazanır. Azərbaycanın kosmos ölkəsi olması dövlətimizin apardığı siyasətin bilik iqtisadiyyatına əsaslanan və gələcəyə hesablanmış uğurlu strateji siyasət olduğuna bariz nümunədir. Belə praqmatik və uğurlu siyasətin müəllifi isə Heydər Əliyev məktəbinin layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevdir.

Biz bu gün Ulu Öndərimizi xatırlayır və iftixarla deyirik ki, bəli, Azərbaycanın Ümummilli Lideri, Azərbaycan dövlətinin xilaskarı, yeni Azərbaycanın memarı Heydər Əliyev bizim qəlbimizdə daim yaşayır və yaşayacaq, gələcək nəsillər Onun həyat yolunu araşdıracaq və öyrənəcəklər. Memarı və qurucusu Ümummilli Liderimiz olan müstəqil dövlətimiz qarşısında hər bir vətəndaşın borcu Heydər Əliyevin şah əsəri olan Azərbaycanı qoruyub-yaşatmaqdır.

***RƏFİQƏ KAMALQIZI***

# Bakıda Rus Kitab Evinin 10 illik yubileyi qeyd olunub

***Oktyabrın 10-da Rus Kitab Evinin 10 illik yubileyi qeyd olunub. AZƏRTAC xəbər verir ki, tədbiri açan "Avrasiya Tədqiqatları İnstitutu" İnkişaf Fondunun prezidenti Valeri Tursunov Rusiya ilə Azərbaycan arasında yüksək səviyyədə münasibətlərin inkişafında iki dövlətin liderlərinin mühüm rolunu vurğulayıb.***

Mərasimdə Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxış edib.

Bakıda Rus Kitab Evinin açılmasının 10 illik yubileyinin əlamətdar hadisə olduğunu vurğulayan Prezidentin köməkçisi dedi ki, bu, postsovet məkanında Rusiya və xarici ölkə yazıçılarının müxtəlif janrlarda rus dilində nəşr olunmuş kitablarının təqdim edildiyi ilk ixtisaslaşdırılmış mağazadır. Fəaliyyətdə olduğu illər ərzində bu mağaza həm oxucuların sevimli yeri, həm də millətlərarası həmrəyliyin möhkəmlənməsi və Azərbaycan ilə Rusiyanın mədəni-humanitar əlaqələrinin dərinləşməsi üçün əlverişli məkan olub.



Son iki əsr ərzində olduğu kimi, ölkələrimizin və xalqlarımızın bu gün də dostluq və mehriban qonşuluq ənənələrini davam etdirdiyini vurğulayan Əli Həsənov bildirdi ki, dərin köklərə malik olan bu ənənələr hüquq bərabərliyi və qarşılıqlı hörmət prinsipləri əsasında qurulur. Ən əsası odur ki, dövlət müstəqilliyi bərpa ediləndən sonra biz tarixən yaranmış ənənələri qoruyub saxlamağa və artırmağa, onları keyfiyyətcə yeni səviyyəyə çatdırmağa nail olmuşuq. Şübhəsiz, bunda həm strateji əməkdaşlığın təməlini qoymuş ümummilli lider Heydər Əliyevin, həm də dövlətlərimizin indiki rəhbərləri cənab İlham Əliyevin və cənab Vladimir Putinin çox böyük xidmətləri olub.





İndiki mərhələdə Azərbaycan-Rusiya münasibətlərinin daha da möhkəmləndiyini qeyd edən Prezidentin köməkçisi dedi ki, bu əlaqələr siyasi və ticari-iqtisadi sahələrdən enerji və humanitar sahələrə qədər demək olar ki, bütün sferaları əhatə edir. Dövlət başçılarının mütəmadi qarşılıqlı səfərləri və beynəlxalq forumlar çərçivəsində görüşləri ikitərəfli faydalı və konstruktiv tərəfdaşlığın gələcək inkişafına təkan verir.

Azərbaycanın postsovet məkanında rus dilinə böyük hörmət bəslənən azsaylı ölkələrdən biri olduğunu diqqətə çatdıran Əli Həsənov dedi: "Hələ çar Rusiyası dövründə və sovet hakimiyyəti dönəmində Azərbaycan dünyaya pəncərə, həm rus, həm də dünya mədəniyyəti, ədəbiyyatı və elmi ilə ünsiyyət vasitəsi olub. Yeri gəlmişkən, yüz il bundan əvvəl Azərbaycanda ilk ali məktəbin - Bakı Dövlət Universitetinin açılması Rusiyanın aparıcı alimlərinin cəlb edilməsi sayəsində mümkün olub. Bu alimlər arasında rektor vəzifəsinə dəvət edilmiş professor Vasili Razumovski də vardı. Məlum olduğu kimi, başlanğıc mərhələdə universitetdə tədris yalnız rus dilində aparılırdı. Sovet dövründə isə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə istedadlı Azərbaycan gəncləri təhsil almaq üçün Rusiyanın aparıcı ali məktəblərinə göndərilirdi. Yadımdadır, Heydər Əliyev tələbələri təhsil almağa yola salarkən onlara rus dilini mükəmməl öyrənməyi tövsiyə edirdi. Rus dili müxtəlif ədəbiyyata yol açır, dünyagörüşünü və bilikləri zənginləşdirirdi. Sevindirici haldır ki, ən müxtəlif istiqamətlərə aid ixtisaslara yiyələnmiş kadrlar respublikaya qayıdandan sonra Azərbaycanın inkişafına öz töhfələrini veriblər. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra da rus dili özünün millətlərarası dil mövqeyini itirməyib, ona əvvəlki kimi ehtiyac var. Buna parlaq sübut kimi bir faktı göstərmək olar ki, respublikamızın 300-dən çox ümumtəhsil məktəbində tədris rus dilində aparılır. Yeri gəlmişkən, son illərdə tədrisin rus dilində aparıldığı siniflərə tələbat artır. Demək olar ki, bütün dövlət ali məktəblərində və özəl ali məktəblərin bəzilərində təhsil fəaliyyəti paralel olaraq Azərbaycan və rus dillərində aparılır. Əhalinin əksəriyyəti rus dilini sərbəst bilir, böyüməkdə olan nəsil bu dili öyrənməyə ciddi maraq göstərir".

Bakının xəritəsində Puşkinin, Lermontovun, Tolstoyun adlarını daşıyan küçələrin olduğunu söyləyən Prezidentin köməkçisi bildirdi ki, Yesenin və Lermontov muzeylərində bu şairlərin ölkəmizdə olması ilə bağlı xatirələr qorunub saxlanılır. "Puşkin mövzusu"nun davamı kimi qeyd etmək istərdim ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan paytaxtındakı mərkəzi bağların birində böyük rus şairi Aleksandr Puşkinə heykəl ucaldılıb. Ölkəmizdə Slavyan Universiteti və Səməd Vurğun adına Rus Dram Teatrı fəaliyyət göstərir, teatrlarımızın çoxunda rusdilli truppa var. Bakıda Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi və rusdilli yazıçıların "Luç" Assosiasiyası fəaliyyət göstərir. Rusiyanın iki aparıcı ali məktəbinin - M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.M.Seçenev adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları açılıb.

Bundan əlavə, rus dilində qəzetlər və jurnallar, dərsliklər və bədii ədəbiyyat nəşr olunur, televiziya və radio kanallarında verilişlər translyasiya edilir, Rusiyanın çoxsaylı dövri mətbu nəşrləri satılır.

Əli Həsənov xüsusi vurğulayıb ki, Cənubi Qafqazda etnik rusların ən böyük icması Azərbaycanda yaşayır. Onlar öz ana dilini, mədəniyyətini və milli ənənələrini qoruyub saxlayıblar. Onlar cəmiyyətin ictimai-siyasi, elmi-mədəni və sosial-iqtisadi həyatında geniş təmsil olunurlar, dövlətçiliyimizin möhkəmlənməsində fəal iştirak edirlər. Şübhəsiz ki, bütün yuxarıda deyilənlər hər iki ölkənin və xalqlarımızın qarşılıqlı maraqlarına cavab verən hərtərəfli əməkdaşlığın inkişafına və dərinləşməsinə dəlalət edir.

Çıxışının sonunda Azərbaycan Prezidenti İlham Əliyevin "Ölkələrimiz arasında tamdəyərli tərəfdaşlıq, dostluq, mehriban qonşuluq münasibətləri var. Mehriban dostlar və qonşular arasında münasibətlər belə də olmalıdır" sözlərini xatırladan Əli Həsənov deyib: "Əminəm ki, bu tədbir humanitar əməkdaşlığımızın daha da möhkəmlənməsinə öz töhfəsini verəcək və bizi daha da yaxınlaşdıracaq. Rus Kitab Evinə uğurlu fəaliyyət və çoxlu sədaqətli alıcı, bütün kollektivə möhkəm cansağlığı və işlərində yeni nailiyyətlər arzu edirəm".

Tədbirdə çıxış edən Rusiya Federasiyası Prezidentinin xarici ölkələrlə regionlararası və mədəni əlaqələr idarəsinin rəisi Vladimir Çernov xatırladıb ki, "Avrasiya Tədqiqatları İnstitutu" İnkişaf Fondu 10 il əvvəl Azərbaycanda dostları ilə birgə bu əlamətdar humanitar layihəni reallaşdırmağa nail olub. "Azərbaycan Prezidenti İlham Əliyevin dəstəyi olmasa idi, eləcə də Bakı sakinlərinin rus dili və mədəniyyətinə isti münasibəti olmasa idi, bu ideya həyata keçirilə bilməzdi.

**Ardı Səh. 6**

Əvvəli Səh. 5

Bu gün Rus Kitab Evi təkcə rus dilində ədəbiyyat yayan məkan deyil, həm də Rusiya və Azərbaycanın, eləcə də rus dilini sevən və bu dildə danışan ölkələrin görkəmli yazıçılarının, tarixçilərinin, elm və təhsil nümayəndələrinin görüşdükləri məkana çevrilib. Ötən 10 il ərzində bu məkanda çoxsaylı tədbirlər keçirilib. Əminəm ki, Rus Kitab Evinin fəaliyyəti iki dövlətin müvafiq strukturlarının dəstəyi sayəsində davam edəcək", - deyən Vladimir Çernov Rus Kitab Evinin 10 illiyi münasibətilə Rusiyanın məşhur nəşriyyatları və universitetlərinin bu məkana böyük miqdarda nüsxə kitablar hədiyyə etdiklərini diqqətə çatdırıb. Tədbirdə "Azərbaycan" nəşriyyatının baş direktoru Ağabəy Əsgərova Rusiya Federasiyasının dövlət mükafatı olan "A.S.Puşkin" medalı, "Avrasiya Tədqiqatları İnstitutu" İnkişaf Fondunun Azərbaycan filialının icraçı direktoru Rauf Həsənova isə Rusiya Federasiyası Prezidenti Administrasiyası rəhbərinin təşəkkürnaməsi təqdim edilib.

# Bakıda Rus Kitab Evinin 10 illik yubileyi qeyd olunub






Daha sonra çıxış edən Rusiya Dövlət Dumasının MDB, Avrasiya inteqrasiyası işləri üzrə və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikov Azərbaycanda rus dili və ədəbiyyatına göstərilən yüksək münasibətdən, iki dövlət arasında dostluqdan, bu dostluğun o cümlədən parlament səviyyəsində inkişafından, davamlı olaraq birgə tədbirlər keçirilməsindən danışıb, iki dövlətin liderlərinin bu işə xüsusi töhfə verdiyini bildirib.

Azərbaycan Rus İcmasının sədri, Milli Məclisin deputatı Mixail Zabelin Azərbaycanda cəmiyyətin bu dilə tələbatının yüksək səviyyədə təmin olunduğunu deyib. Bakının müxtəlif yerlərində açılan kitab evlərində də rus dilində kitab bölmələrinin olduğunu qeyd edən Mixail Zabelin VI Bakı Beynəlxalq Kitab Yarmarkasında Rusiyanın bir çox nəşriyyatlarının iştirak etdiyini xatırladıb. "Bu gün Azərbaycanda 120 mindən çox təkcə rus əhalisi yaşayır. Mən hələ digər millətlərin nümayəndələrindən danışmıram. Azərbaycan nəinki Qafqazda, bütün Avropaya örnək olan multikulturalizm mərkəzinə çevrilib", - deyə Mixail Zabelin vurğulayıb.

Mərasimdə çıxış edən Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov Rus Kitab Evinin fəaliyyətinə göstərilən dəstəyə görə iki dövlətin müvafiq strukturlarına təşəkkürünü bildirib. Rusiya-Azərbaycan münasibətlərindən söz açan səfir son günlər Azərbaycanda həyata keçirilən birgə mədəni tədbirlər fonunda Rus Kitab Evinin 10 illik yubiley tədbirinin xüsusi yeri olduğunu vurğulayıb. O, yaşadığımız rəqəmsal dövrdə kitaba önəm verilməsini yüksək qiymətləndirib.

Rusiya yazıçısı, publisist Yuri Polyakov Rusiya Kitab Evinin bir mədəniyyət məbədi olduğunu vurğulayıb, müasir dövrdə mütaliənin əhəmiyyətindən danışıb.

Azərbaycanın Xalq yazıçısı, Yazıçılar Birliyinin katibi, Azərbaycan PEN-klubun prezidenti Çingiz Abdullayev Bakıda Rus Kitab Evinin fəaliyyətini yüksək qiymətləndirib, Azərbaycanda cəmiyyətin inkişafında rus dili və ədəbiyyatının rolunu, habelə rus dili və digər dilləri bilməyin önəmini, mütaliə etməyin vacibliyini qeyd edib.

Moskvadakı A.S.Puşkin adına Dövlət Rus Dili İnstitutunun rektoru Marqarita Rusetskaya rəhbərlik etdiyi təhsil müəssisəsi ilə Azərbaycanın bir çox tədris ocaqları arasında onilliklər boyunca davam edən dostluq, peşəkar münasibətlərdən danışıb, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti ilə əlaqələri vurğulayıb. Rus Kitab Evinin həm də rus dilində danışan, düşünən, oxuyan hər kəsi cəlb edəcəyinə ümidvar olduğunu deyib.

"Azərbaycan" nəşriyyatının direktoru Ağabəy Əsgərov, "Avrasiya Tədqiqatları İnstitutu" İnkişaf Fondunun Azərbaycan filialının icraçı direktoru Rauf Həsənov Rus Kitab Evinin fəaliyyətinin önəmindən danışıb, təltif edildiklərinə görə təşəkkürlərini bildiriblər.

Qeyd olunub ki, respublikamızın 350-dən çox ümumtəhsil məktəbində tədris rus dilində aparılır. Rusiyanın iki aparıcı ali məktəbinin - M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları açılıb. Bakıda Puşkinin, Lermontovun, Tolstoyun adlarını daşıyan küçələr, Yesenin və Lermontov muzeyləri var.

Sonda Rus Kitab Evinə rus dilində ədəbiyyat hədiyyə olunub.

# YAP İcra Katibliyində "Qarabağ Azərbaycandır! Münaqişənin həlli perspektivləri" mövzusunda dəyirmi masa keçirilib

***Oktyabrın 10-da Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "Qarabağ Azərbaycandır! Münaqişənin həlli perspektivləri" mövzusunda dəyirmi masa keçirilib.***



Dəyirmi masada, Milli Məclisin deputatları, siyasi partiyaların nümayəndələri, QHT təmsilçiləri və ekspertlər iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunda səsləndirdiyi bəyanat gündəmin ciddi şəkildə dəyişməsinə gətirib çıxarıb. Bu bəyanat təkcə Azərbaycan cəmiyyətində deyil, daha geniş müstəvidə müzakirə olunur. Əli Əhmədovun sözlərinə görə, Prezident İlham Əliyevin "Qarabağ Azərbaycandır!" bəyanatı sadəcə olaraq danışıqlar prosesində Azərbaycanın dəfələrlə səsləndirilmiş mövqeyinin bir daha təkrarlandırılması demək deyil. Bu bəyanatın daha böyük əhəmiyyəti olduğunu vurğulamaq lazımdır.





"Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışı bir çox ünvana hədəflənmiş çıxış idi. Onun hədəflərindən biri Ermənistandır. Bununla Ermənistan cəmiyyətinə mesaj verilir ki, Ermənistan öz xülyasından əl çəkməlidir. Mesaj ünvanlanan hədəflərdən biri beynəlxalq təşkilatlardır ki, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar vasitəçilik missiyasını üzərlərinə götürüblər"-deyən YAP Sədrinin müavini qeyd edib ki, Qarabağın erməni əhalisi Qarabağın Azərbaycan əhalisinin sayının 1 faizinə bərabərdir.

Baş nazirin müavini söyləyib ki, Prezident İlham Əliyevin mesajının ünvanı həm də Azərbaycan cəmiyyəti idi: "Bu gün ölkəmizin hər yerində "Qarabağ Azərbaycandır" sədasını eşidirik. Bu, torpaqları işğaldan azad etmək əzmini daha da qətiləşdirir. Yeni Azərbaycan Partiyası olaraq, bu ideyanın gerçəkləşdirilməsi üçün addımlar atırıq. Yollarda Bakı Nəqliyyat Agentliyi ilə birlikdə bu şüarları əks etdirən elektron monitorlar quraşdırılıb, plakatlar yerləşdirilib, kampaniya üçün köynəklər sifariş verilib".

YAP Sədrinin müavini qeyd edib ki, "Qarabağ Azərbaycandır!" mesajı cəmiyyətin milli birliyini və vətəndaş həmrəyliyini təmin edən ən mühüm ideyalardan biridir. Bu baxımdan, "Qarabağ Azərbaycandır!" ideyası böyük bir hərəkata çevriləcək. Bu ideyanın ətrafında cəmiyyətimizin üzvlərinin fəal çəkildə birləşməsi bunu deməyə əsas verir.

Əli Əhmədovun sözlərinə görə, Ermənistanın konstruktiv mövqeyinin olması danışıqlar prosesinin normal aparılmasının vacib şərtlərindən biridir. Əgər Ermənistan qeyri-konstruktiv mövqeyini davam etdirəcəksə, beynəlxalq təşkilatlar, vasitəçilər danışıqlar prosesi ilə bağlı mövqeyində ciddi düzəlişlər etməlidir".

Dəyirmi masada çıxış edən Milli Məclisin deputatlarından Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, Bəxtiyar Əliyev, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Fəzail İbrahimli, Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Oruc, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Hikmət Babaoğlu, Elman Nəsirov eləcə də politoloq Mübariz Əhmədoğlu və digərləri Prezident İlham Əliyevin bəyanatının tarixi əhəmiyyət kəsb etdiyini vurğulayıblar. Qeyd olunub ki, bu baxımdan, "Qarabağ Azərbaycandır!" hərəkatının yaradılması sosial sifarişə çevrilib.

## Ermənilər nə vaxtdan İslam dəyərlərinə diqqət yetiriblər!?



“Bununla bağlı biz mövqeyimizi dəfələrlə demişik. Xarici İşlər Nazirliyi də öz mövqeyini bildirib. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarixi, mədəni abidələrinin məqsədyönlü şəkildə ermənilər tərəfindən dağıdılması bizim tərəfimizdən qətiyyətlə pislənir”. Bunu Dini Qurumlar üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı SİA-ya son günlər aktual olan Şuşada Gövhər ağa məscidinın ermənilər tərəfindən sözdə təmiri barəsində danışarkən deyib.

M.Qurbanlı bildirib ki, bu, beynəlxalq hüquq normalarına, beynəlxalq miqyasda mənəvi, tarixi irsin qorunması ilə bağlı qəbul edilmiş konvensiyalara, müxtəlif paktlara ziddir və bizim komitə tərəfindən də bu mövqe açıq şəkildə bildirilir: “Bizi təəccübləndirən və təəssüfləndirən odur ki, ermənilərin bu mənhus fəaliyyətində bizə dost-qardaş ölkə olan İran İslam Respublikasının hər hansı şirkəti iştirak edir. Araşdırdıqda bəlli olur ki, şirkətin rəhbəri özü də Yerevanda memarlıqla bağlı təhsil alıb. Məni təəccübləndirən budur ki, Yerevanda memarlıqla bağlı nə öyrədə bilərlər ona!? Biz bunu da pisləmişik ki, bu hallar olmamalıdır”. Komitə sədri qeyd edib ki, İran İslan Respublikası bizə dost-qardaş ölkədir və İslam Əməkdaşlıq Təşkilatında Ermənistanın təcavüzü məsələsi qətiyyətlə pislənib: “O cümlədən İslama aid tarixi abidələrin üzərində ermənilərin bu cür əməllər etməsi bütün islam dünyası tərəfindən pislənilməlidir. Mən əminəm ki, ermənilərin bu cür əməllərinə dəstək verənlər bundan sonra olmayacaq və olmamalıdır. Belə olan halda sual doğur ki, ermənilər nə vaxtdan islam dəyərlərinə diqqət ermənilər nə vaxtdan İslam dəyərlərinə diqqət yetiriblər!? Məscidi təmir edirik adı altında Azərbaycan mədəniyyətinə irsinə xələl yetirirlər. Erməni vandalizmi hər zaman özünü biruzə verib. Həm siyasi, həm hərbi, həm də mənəvi vandalizmi. Azərbaycanın işğal olunmuş ərazilərində bizim tarixi abidələrimizi, İrəvan xanlığına aid tarixi abidələri məhv etmək üçün onlar böyük vəhşiliklər törədiblər. Ona görə də ermənilərin hansısa məscidi bərpa adı altında İslami dəyərlərə münasibətini göstərmək cəhdləri saxtakarlıqdan başqa birşey deyil”.

*Aysel Məmmədova*

## Rövşən Rzayev: Bu il 6 min məcburi köçkün ailəsinə mənzillər veriləcək




Oktyabrın 10-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Yeni Azərbaycan Partiyasının icra katibliyində mətbuat konfransı keçirib. AZƏRTAC xəbər verir ki, komitə sədri məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşmasının Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatların nəticəsi olduğunu bildirib. Qeyd edib ki, “Qobu-Park” yaşayış kompleksində birinci mərhələdə 1026, ikinci mərhələdə isə 1300 ailə mənzillə təmin olunub.

Tikinti işləri özəl şirkət tərəfindən aparılıb. Əgər Dövlət Komitəsinin tikdiyi yaşayış kompleksində mənzillər yalnız mətbəx avadanlıqları ilə təmin olunurdusa, özəl şirkətin inşa etdiyi binalarda mənzillər mətbəx mebeli ilə təmin olunub, ev sahiblərinə soyuducu hədiyyə edilib.

Rövşən Rzayev qeyd edib ki, bu il 6 min məcburi köçkün ailəsinə mənzillər veriləcək. Onlardan 3700-dən çoxu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən, yerdə qalanları özəl sektorun köməyi ilə tikiləcək. Bununla yanaşı, Şirvanda 685 ailəyə mənzil təqdim olunacaq, Beyləqanda 146 fərdi ev tikilib istifadəyə verilib. Göyçayda, Göygöldə və Kürdəmirdə qəsəbə istifadəyə veriləcək. Komitə sədri deyib ki, evlər ilkin olaraq ağır şəraitdə yaşayan məcburi köçkünlərə verilir. Mənzillərin paylanması ilə bağlı komissiya fəaliyyət göstərir. Biz köçürülmə zamanı daha çox yataqxanalarda, pansionatlarda, məktəblərdə, uşaq bağçalarında, zirzəmilərdə qalanlara üstünlük veririk. Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığına əsasən, zirzəmilərdə yaşayan 300-ə yaxın ailə mənzillərlə təmin olunub. Yeni mənzillərin və qəsəbələrin tikilməsi ilə əlaqədar torpaqların ayrılması üçün müraciətlər olunub. R.Rzayev görülən əlavə tədbirlər haqqında da danışıb. Bildirib ki, Səhiyyə Nazirliyi ilə birlikdə müayinələr keçirilib. Bundan başqa, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə əmək yarmarkaları təşkil edilib.

Qeyd edib ki, Azərbaycanda sosial-iqtisadi inkişaf proqramlarının uğurlu icrasını hər bir vətəndaş öz həyatında hiss edir. Bu baxımdan qaçqın və məcburi köçkünlərə göstərilən xüsusi qayğı da böyük əhəmiyyət daşıyır. Ulu öndər Heydər Əliyev bu qəbildən olan insanlara daim diqqət və qayğı ilə yanaşıb, onların sosial müdafiəsi və mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində xeyli iş görüb. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva fəaliyyətlərində qaçqın və məcburi köçkünlərə diqqət və qayğını davam etdirirlər. 2003-cü ildən bu günədək Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların məşğulluğunun təmin edilməsi ilə bağlı xeyli fərman və sərəncam imzalayıb, bir çox proqramlar qəbul edilib. Prezident İlham Əliyevin hələ 2003-cü ildə elan etdiyi kimi, qısa müddətdə bütün çadır düşərgələri ləğv edilib. Daha sonra komitə sədri jurnalistlərin suallarını cavablandırıb.

## Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, oktyabrın 10-da Biləsuvar, Oğuz, Ağdam, Ağstafa və Xocavənd rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerindəcə həll edilib. Araşdırılma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlətimizin başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

Diqqətə çatdırılıb ki, Azərbaycanda sosial-iqtisadi sahədə inqilabi islahatlar həyata keçirilməkdədir. Bu islahatlar, ilk növbədə, əhalinin rifah halının yaxşılaşdırılmasına, vətəndaş məmnunluğuna yönəlib. Prezident İlham Əliyev hələ 2018-ci ilin sonlarında bəyan etmişdi ki, qarşıdakı dövrdə əhalinin sosial durumunun daha da yaxşılaşdırılması prioritet olacaq. Bu məqsədlə 2019-cu ilin əvvəlində dövlətimizin başçısı iki böyük sosial islahat paketini təsdiqlədi. Birinci paketdə 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılmasına, mühüm sosial məsələlərin həllinə 1,6 milyard manat yönəldildi və icra olundu. İkinci paketin icrası ilə bağlı hazırlıq işləri də tamamlanıb və sentyabrın 1-dən minimum əməkhaqqı 250 manata çatdırılıb, əlavə olaraq 400 min nəfərin maaşı 20-50 faiz artırılıb. Oktyabrın 1-dən isə pensiyaların artımı 750 min nəfərə şamil olunacaq. Hər iki paketin ümumi məbləği cari il üçün 2,3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat təşkil edir. Bu iki sosial islahat paketi, ümumilikdə, 4,2 milyon vətəndaşı əhatə edəcək. Minimum pensiya 72 faiz artırılıb. Beləliklə, ölkəmiz minimal pensiya üzrə alıcılıq qabiliyyətinə görə MDB-də birinci olacaq. Minimum əməkhaqqının 250 manata çatdırılmasından sonra Azərbaycan bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşıb.

Bundan başqa, müavinətlərin və təqaüdlərin artırılması 300 min əlilliyi olan şəxsi, 500 min məcburi köçkünü, 100 mindən çox tələbəni, ümumilikdə, 1,3 milyon insanı əhatə edir. Ən əsası, bu addımlar aztəminatlı təbəqəni əhatə etməklə yanaşı, həmin kateqoriyaya aid olan insanların sosial durumunu əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

Azərbaycan Prezidentinin digər təşəbbüsü sosial sığorta sahəsində inqilabi irəliləyişi təmin edib. Belə ki, 2006-2018-ci illərdə sığortaya hətta cüzi məbləğ ödəyənlərə belə 25 illik sığorta stajı hesablanıb. Bunun nəticəsində yanvarın 1-dən heç bir bürokratik əngəl olmadan 13 min nəfərə pensiya təyin olunub. İl ərzində pensiyaya çıxan vətəndaşların 80 faizi də bundan yararlana biləcək. Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb. Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## Mahmud Vaezi: Heç bir qüvvə İran ilə Azərbaycanın dostluq münasibətlərini poza bilməz



İran və Azərbaycan xalqları ortaq tarixi keçmişə, adət-ənənələrə və dini dəyərlərə malikdirlər. Bu faktlar dövlətlərin yaxın münasibətlər qurmasına böyük zəmin yaradır. AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Prezident Administrasiyasının rəhbəri Mahmud Vaezi deyib. O bildirib ki, iki ölkənin prezidentləri son beş ildə 6 dəfə görüşüb və əlaqələrin inkişafını müzakirə ediblər. Bu görüşlər hər iki prezidentin siyasi iradəsinin yüksək olduğunu göstərir. Mahmud Vaezi nəzərə çatdırıb ki, hazırda ölkələrimiz arasında qarşılıqlı əlaqələr uğurla inkişaf edir. Bu əməkdaşlıq iqtisadi sahədə özünü daha çox göstərir. İran və Azərbaycan beynəlxalq əhəmiyyət daşıyan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşmasında iştirak edirlər. Bu layihə təkcə İran ilə Azərbaycanı deyil, Asiya ilə Avropanı da birləşdirəcək.

Administrasiya rəhbəri bildirib ki, ölkələrimizin iqtisadi potensialı böyükdür və əlaqələrin daha da genişlənməsinə imkan verir. İran Azərbaycan ilə bütün sahələr üzrə əlaqələrin genişlənməsi üçün heç bir maneə görmür. “Bizim münasibətlərimiz dostluğa və qardaşlığa əsaslanaraq səmimi xarakter daşıyır”, - deyən Mahmud Vaezi vurğulayıb ki, heç bir qüvvə bu qardaşlıq münasibətlərini poza bilməz.

## “Azərbaycan digər ölkələrə nümunədir”



*“Biz Azərbaycana “Rus Kitab Evi”nin 10 illik yubileyini qeyd etmək üçün gəlmişik. Növbəti dəfə Azərbaycanda olmaqdan məmnunluq hissi duyuram. Ötən gün Azərbaycan Prezidenti İlham Əliyev bizi çox səmimi qəbul etdi”. Bu fikirləri jurnalistlərə açıqlamasında Rusiya Dövlət Dumasının MDB ölkələri ilə iş üzrə Komitəsinin sədri Leonid Kalaşnikov deyib.*

Prezident İlham Əliyevlə görüşdə Azərbaycanda rus dilinə olan münasibət haqqında söz açdıqlarını deyən komitə sədri söyləyib ki, heç bir post sovet ölkəsində bu dilə Azərbaycandakı isti münasibət göstərilmir. L.Kalaşnikov Rusiyada bir çoxlarının xoşun gəlməsə də o rus dilinə olan münasibətlə bağlı Azərbaycanı nümunə gətirdiyini dilə gətirib: “Hər kəsə məlumdur ki, rus dilinə verilən dəyər Ulu Öndər Heydər Əlievin bu dilə olan münasibətindən irəli gəlir. Rusiyada xüsusilə də böyük nəsil Ulu Öndəri öyrənir, onun haqqında geniş məlumata malikdir. Hətta ölkəmizdə keçirilən humanitar tədbirlərdə Onu xoş sözlərlə xatırlayırıq. Onun gördükləri işlər haqqında danışmalıyıq ki, hər kəs məlumatlı olsun”.

# Almaniya nəşrində AZƏRTAC-ın İdarə Heyətinin sədrinin məqaləsi dərc edilib

***Almaniyada çıxan "Berliner Press" nəşrində AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanovun "Siyasətdə varisilik: Azərbaycanın taleyini və simasını dəyişmiş 26 il" sərlövhəli məqaləsi dərc edilib (https://berlinerpress.home.blog/-2019/10/10/nachfolge-in-der-politik-26-jahre-die-das-schicksal-und-gesicht-aserbaidschans-verandert-haben/).***

AZƏRTAC xəbər verir ki, məqalədə ümummilli lider Heydər Əliyevin


26 Jahre, die das Schicksal und Gesicht Aserbaidschans verändert haben

Ein Bild von vor 26 Jahren: Chaos und Anarchie, soziales Elend, politische Krise, Bürgerkrieg, Unsicherheit und Hoffnungslosigkeit ...

Das heutige Bild: ein klar funktionierender Staats- und Verwaltungsmechanismus, dynamische sozioökonomische Entwicklung, die Einheit von Volk und Macht, dauerhafte Stabilität und feste Zuversicht in die Zukunft ...

Derzeit gibt es kein zweites Land auf der Welt, das sich so schnell entwickelt wie Aserbaidschan

xalqın çağırışı ilə Bakıya qayıdışı anından Azərbaycan dövlətinin 26 illik inkişaf yolunun təhlili verilib. Bu qayıdış xaosun sonu və xalqın tarixində sabitlik və tərəqqi şəraitində yeni səhifənin açılması ilə əlamətdar olub. Məqalədə Azərbaycanın milli siyasi doktrinasının varisiliyi barədə Almaniya ictimaiyyətinə məlumat verilir və qeyd edilir ki, əsası Heydər Əliyev tərəfindən 1993-cü ildə qoyulmuş strateji kurs hazırda onun layiqli varisi - Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məqalədə gənc dövlətin müstəqillik illərində qazandığı əsas uğurlar da qeyd olunur.

# "Piket adı altında müxtəlif məqsədlərə xidmət etmək qəbuledilməzdir"

***"Son aksiya xüsusilə də Əli Kərimlinin mənəviyyatını bir daha ortaya qoydu. Onların məqsədi piket adı altında asayişi, qanunları pozmaq, bütövlükdə o ətrafa toplaşan insanları özlərinin sosial bazası kimi təqdim etməkdən ibarət idi".***

Bu fikirləri SİA-ya açıqlamasında "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib. O bildirib ki, 50 nəfəri idarə etməyi bacarmayan Əli Kərimli hansı elektrotlarının olduğundan danışır. V. Rəhimzadə söyləyib ki, Əli Kərimli yarıtmaz biri kimi insanlara



çağırış edib özü aksiyada iştirak etmədi: "O, özünün xislətinin nədən ibarət olduğunu ortaya qoydu. Onların məkrli niyyətləri artıq xalqımıza da bəllidir".

Onun sözlərinə görə, "Milli Şura" və AXCP onlara verilən icazədən istifadə edərək piket adı altında başqa çağırışlar edərək müvafiq qanunları pozdular: "Hesab edirəm ki, bu cür əməllərə yol vermək olmaz. Şəhərin mərkəzində piket adı altında müxtəlif məqsədlər yerinə yetirmək istəyi qəbuledilməzdir". Baş redaktor söyləyib ki, əgər "Milli Şura" piket keçirmək niyyətindədirsə, o zaman onlar üçün Qaradağ rayonunda ayrılan ərazidən istifadə etməlidir: "Onlar çox yaxşı bilir ki, hə hansı aksiya keçirmək gücünə malik deyillər. Öz şəxsi maraqlarını uca tutanlar son addımları ilə Azərbaycan cəmiyyətinə özələrinin çirkli niyyətlərini göstərmiş oldular".

***Nailə Məhərrəmova***

# Əli Kərimlinin yaxın adamının səs yazısı: "Heç kim gəlmir, biabır oluruq"

***AXCP sədri Əli Kərimlinin yaxın adamlarından birinin - partiya funksioneri Məmməd İbrahimin sosial şəbəkələrdə səs yazısı yayılıb.***

İbrahim Məmməd Əziz oğlu - 1966-cı ildə Yevlax rayonunda anadan olub, AXCP sədrinin müşaviri, Nərimanov şöbəsinin koordinatorudur. Partiya daxilində xüsusi aktiv və tanınmış şəxslərdəndir. M.İbrahim 2015-ci il sentyabrın 30-da xuliqanlıq ittihamı ilə 3 il müddətinə həbs olunub.

Audioyazıda nə deyir, Məmməd İbrahim?

"Bizim qərarımız var, 4-cü gün piket keçirəcəyik ya İcra Hakimiyyətinin qabağında, ya da Prezident Aparatının qabağında. Gələn gəlsin, qorxan qorxsun, bizim işimiz budur. Ona görə deyirəm ki, köhnədən gələn, təzədən gələn bizim bu işdə təcrübəmiz var. Dünən gələn adam bilmir bu nə deməkdir? Nə üçündür? Biz bilmişik haralara gedəndə nədir. Qurtarın, heç kim gəlməyəcək Lökbatana, heç kim gəlməyəcək Lökbatana. "Dvadsatı"-ya gəlmirdilər, "Dvadsatı"-ya biz



2 min, 3 min adam yığırdıq. 2 min, 3 min adam gəlmişdi "Dvadsatı"-ya. 20-ci sahədən uzaqdı Lökbatan. "Dvadsatı"-ya 2 min adam gəldi biabır olduq, biabır olduq, biabır olduq, əl çək bu Lökbatandan. Mikayıl bəy, əl çək bu Lökbatandan."

Bu lent yazısından AXCP və Milli Şura yetkililərinin niyə Lökbatan meydanına görə cığallıq eləməsinin səbəbi aydın olur. Elektorat Əli Kərimliyə görə fədakarlıq etmək istəmir. Biabır olduqlarını görən AXCP funksionerləri isə mitinq keçirməkdən daha çox, məkanla bağlı cığallıq etməyə üstünlük verirlər. Çünki Məmməd İbrahim demişkən, insanlar gəlmirlər və biabır olurlar...

## Oktyabrın 18-dən Mingəçevir və Şəkiyə gecə avtobus reysləri fəaliyyətə başlayacaq

Oktyabrın 18-dən Mingəçevir və Şəki istiqamətində gecə avtobus reysləri fəaliyyətə başlayacaq.

Bakı Beynəlxalq Avtovağzal Kompleksindən AZƏRTAC-a bildirilib ki, Şəki istiqamətinə sərnişin tələbatının həddindən artıq çox olması həmin istiqamətə gecə reysinin nəzərdə tutulan vaxtdan daha tez bərpa olunmasına zəmin yaradıb. Avtobuslar hər gün Bakı-Mingəçevir istiqamətində saat 23:30-da, Mingəçevir-Bakı istiqamətində isə saat 01:00-da yola düşəcək. Həmçinin avtobuslar Bakıdan Şəkiyə və Şəkidən Bakıya saat 23:30-da hərəkətə başlayacaq.

Biletlər artıq dünəndən satışdadır. Sərnişinlər biletləri qabaqcadan satış kassalarından səfər tarixinə 10 gün qalmışdan 1 gün əvvələ kimi və ya gündəlik, eyni zamanda, "avtovagzal.az" saytı və ya mobil tətbiq üzərindən "onlayn" qaydada əldə edə bilərlər.

## Bakıda MDB ölkələri əhalisinin əmək, məşğulluq və sosial müdafiə üzrə Məşvərət Şurasının iclası keçiriləcək

Oktyabrın 14-də Bakıda Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçı dövlətləri əhalisinin əmək, məşğulluq və sosial müdafiə üzrə Məşvərət Şurasının iclası keçiriləcək. MDB İcraiyyə Komitəsinin mətbuat xidmətinin məlumatında deyilir ki, iclasın gündəliyinə 21 məsələ daxil edilib. Onların arasında MDB ölkələrinin əmək və sosial sahələrdə əməkdaşlığının vəziyyəti və perspektivləri, Birlik dövlətlərində sosial-əmək şəraiti və bu sahədə görülən tədbirlər də var. Azərbaycan tə-



rəfi iştirakçılara tibbi-sosial ekspertizanın həyata keçirilməsində istifadə olunan elektron prosedurlar barədə məlumat verəcək.

İclasda Belarus tərəfinin təklifi ilə Birlik ölkələrində əlillərin əmək və peşə reabilitasiyası sahəsində uğurlu təcrübələr müzakirə ediləcək. Özbəkistan nümayəndəsinin təklifi əsasında isə Şuranın üzvləri gənc nəslin özünü reallaşdırılması istiqamətində sosial dəstəyin göstərilməsi üzrə əməkdaşlıq məsələsinə baxacaqlar.






# "Erməni yalanının növbəti ifşası"

Dünən Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında İcra Katibliyində YAP Nəsimi rayon təşkilatı "Erməni yalanının növbəti ifşası" adlı kitabın və bunun əsasında hazırlanmış videoçarxın təqdimatını keçirdi.

Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı Azərbaycan Prezidenti İlham Əliyevin, müntəzəm olaraq, beynəlxalq kürsülərdə erməni yalanlarını, bu yalanları uyduran erməni xalqının xəstə təxəyyüllü rəhbərlərini ifşa etdiyini söyləyib. Qeyd edib ki, bu günlərdə Prezident İlham Əliyev Rusiyanın Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışında "Qarabağ Azərbaycandır və nida işarəsi" deyərək, növbəti erməni yalanını ifşa etdi: "Qətiyyət və cəsarət rəmzi olan bu çıxış ictimaiyyət tərəfindən, eləcə də, gənclər tərəfindən yüksək dəyərləndirilərək, hələ də müzakirə olunur. Bu tarixi çıxış və onun videosu YAP Nəsimi rayon təşkilatı tərəfindən ona yaxın xarici dilə tərcümə edilərək, nəşr olunub.

Tədbirdə YAP İcra katibinin müavini, Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri Siyavuş Novruzov Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkarlıq siyasəti nəticəsində, torpaqlarımızın 20 faizinin işğal olunduğunu bildirib. O, əlavə edib ki, işğalçı ölkə, eyni zamanda, uzun illər ölkəmizə qarşı böhtan və şər kampaniyaları da apararaq, dövlətimizin imicinə kölgə salmağa çalışır.

YAP İcra katibinin müavini Siyavuş Novruzov onu da bildirib ki, Ümummilli Lider Heydər Əliyev beynəlxalq təşkilatların tribunalarından erməni yalanlarını dünya ictimaiyyətinə çatdırırdı: "Bu gün bu siyasi missiya Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Dövlətimizin başçısı "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışında, konkret olaraq, Qarabağın tarixi və əzəli Azərbaycan torpağı olduğunu bir daha bəyan etdi. Prezident "Qarabağ Azərbaycandır və nida" söyləməklə, bir daha dövlətimizin birmənalı mövqeyini nümayiş etdirdi. Azərbaycanın siyasi arena ilə yanaşı, hərb meydanında da ermənilərə sarsıdıcı zərbə vurduğunu deyən deputat, buna misal olaraq, aprel döyüşlərini göstərib.

Tədbirdə YAP Nəsimi rayon təşkilatı gənclər birliyinin sədri Salman Salmanov, üzvü Nigar Yahyayeva və YAP Gənclər Birliyinin Aparat rəhbəri Fərid Namazov çıxış ediblər.

Daha sonra Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışı ilə bağlı videoçarx nümayiş olunub.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Mənəvi Dəyərlərin Təbliği Fondu 2 yaşını qeyd edib

Dünən Mənəvi Dəyərlərin Təbliği Fondu "Mənəvi dəyərlər və dövlət siyasəti" adlı konfrans keçirib. Eyni zamanda fondun 2 yaşı qeyd olunub. SİA-nın verdiyi məlumata görə, konfransın açılışından öncə Azərbaycanın Dövlət Himni səsləndirilib.



Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov çıxışında bildirib ki, bu gün Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasından artıq iki il keçir: "Mənəvi Dəyərlərin Təbliği Fondu 10 oktyabr 2017-ci ildə Prezident İlham Əliyevin 1624 nömrəli fərmanı ilə Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin tabeliyində yaradılıb. Fondun əsas işi, fəaliyyət istiqaməti mənəvi dəyərlərin qorunması, inkişafı, bu sahədə müxtəlif layihələrin həyata keçirilməsi, din-dövlət münasibətləri sahəsində maarifləndirmə işinin aparılması kimi məsələlərdən ibarətdir".

Sonra söz Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya verilib. Mübariz Qurbanlı öz çıxışında keçirilən konfransın çox əhəmiyyətli olduğunu qeyd edib. Komitə sədri Mənəvi Dəyərlərin Təbliği Fondunun kollektifini, Himayəçilər Şurasının üzvlərini əlamətdar gün münasibətilə təbrik edib.

M.Qurbanlı qeyd edib ki, biz Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasını Azərbaycanın ictimai-siyasi həyatında çox mühim hadisələrdən biri kimi qeyd edirik: "Möhtərəm Prezidentimiz İlham Əliyevin sərəncamı ilə yaradılan bu Fond və onun qarşısına qoyulmuş vəzifələr Azərbaycanın indiki şəraitdə millət olaraq mənəviyyat sahəsində qarşısında duran vəzifələrin həlli istiqamətində atılan addımlardan biridir. Xalqımızın tarixi, mənəviyyatı, dini dəyərləri müxtəlif qurumlar tərəfindən öyrənilir, təbliğ olunur. Lakin belə bir ümumi işləri həyata keçirən qurumun yaradılmasına da ciddi ehtiyyac vardı və bu ehtiyacı nəzərə alaraq vaxtında belə bir qərar qəbul edilib deyə vurğulayıb".

Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü, SƏS Media Qrupun rəhbəri Bəhruz Quliyev çıxışında Fondun yaradılması ilə bağlı fikirlərini bildirib: "Fondun iki yaşı olmasına baxmayaraq çox böyük işlərə imza atıb. Əvvəla Fondun hansı zərurətdən yarandığını qeyd etmək lazımdır. Bildiyiniz kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mənəvi dəyərlərin inkişafına, mənəvi dəyərlərin qorunmasına, dini tolerantlığa, multikultural dəyərlərə hörmətlə yanaşır və ümumiyyətlə, dövlətin prioritet istiqamətlərindən biri də məhz bunları qorumaq, bu dəyərlərə hörmətlə yanaşmaq və gələcək nəsillərə ötürməkdir. Bu gün Azərbaycanın inkişafı onu da özündə ehtiva edir ki, dövlətin inkişafı ilə yanaşı, eyni zamanda cəmiyyət də inkişaf etsin. Və cəmiyyəti inkişaf etdirmək üçün müxtəlif qurumlar, fondlar yaradılır. Bu o deməkdir ki, dövlətin inkişafı özü ilə birgə cəmiyyətin də inkişafını stimullaşdırır". Sonra Fondun Müşahidə Şurasının üzvləri və digər şəxslər çıxış ediblər. Daha sonra mükafatlandırma mərasimi keçirilib. Mükafatçılar sırasında SİA-nın əməkdaşı da olub.

***Aysel Məmmədova***

## YAP Səbail rayon təşkilatının ərazi ilk partiya təşkilat sədrləri ilə geniş tərkibli iclası keçirilib



Dünən YAP Səbail rayon təşkilatının qərargahında ərazi ilk partiya təşkilatlarının sədrləri ilə geniş tərkibdə iclası keçirilib. YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı professor Şəmsəddin Hacıyev iclasda çıxış edərək, ölkəmizin ictimai-siyasi həyatında baş verən son hadisələr, ölkə başçısının "Valday" klubunun XVI forumundakı tarixi çıxışının dünya mətbuatında yaratdığı rezonans haqqında məlumat verib. Ş.Hacıyev qeyd edib ki, Azərbaycan bu gün bütün sahələrdə dinamik, şaxələnmiş və inklüziv inkişafını davam etdirir: "Beynəlxalq təşkilatlar ölkə əhalisinin rifahının ildən-ilə yüksəlməsi istiqamətində aparılan sosial islahatları yüksək qiymətləndirirlər və ölkəmiz bir çox sosial-iqtisadi göstəricilər üzrə beynəlxalq hesabatlarda ilk mövqelərdədir".



Ş.Hacıyev onu da bildirib ki, ölkəmizin dinamik inkişafı, ölkə başçısının xalqımızın milli maraqlarına xidmət edən müstəqil siyasəti, Azərbaycanın təbii sərvətlərinin sahibi olması müəyyən xarici qüvvələr tərəfindən qısqanclıqla qəbul edilir: "Bu səbəblə müstəqil dövlətçiliyimizə, ölkə başçısına qarşı, xüsusilə, virtual məkanda bir çox çirkin vasitələrlə anti-Azərbaycan təbliğatı təşkil olunur. Demokratik cəmiyyətdə sağlam müxalifətin mövcudluğu vacib şərtdir, lakin hazırda ölkəmizdə özünə müxalifət deyənlər, siyasi mübarizəni elementar etik qaydalar çərçivəsində təşkil edə bilməyən, yalnız dağıdıcılıq məqsədi güdən radikal qüvvələrdir. Sosial bazası, elektoratı yox səviyyəsində olan bu qüvvələr, açıq şəkildə, müəyyən xarici mənbələrdən maliyyələşirlər və bunun müqabilində konkret öhdəlikləri olduğu üçün sosial şəbəkələrdə cəmiyyətdə gedən prosesləri təhrif etməklə məşğuldurlar. Sosial şəbəkələrdə anti-Azərbaycan, antimilli təbliğatla məşğul olan dırnaqarası müxalifətin son "piket" səs-küyü məsələsinə də toxunan deputat bildirdi ki, siyasi mübarizənin də öz üsulları və müəyyən çərçivəsi var. Bu çərçivəni aşanlar, cəmiyyətdə anarxiya yaratmaq üçün çalışırlar. Artıq müxalifət sosial şəbəkələrdə də uduzduğunu görür, son mitinq istəkləri ilə bağlı təşkil etdikləri sorğuda iştirak edənlərin 87%-i mitinqə "yox" cavabını verdi, bu da, müxalifətin cəmiyyətdə sosial bazasının zəif olmasının bariz göstəricisidir".

Görüşdə mövzu ətrafında müzakirələr aparılıb, ərazi ilk partiya təşkilatları ilə əlaqələrin daha da gücləndirilməsi, partiyanın siyasi mübarizə formalarının müasir dövrün çağırışlarına uyğun qurulması, sosial şəbəkələrdə işin səmərəliliyinin yüksəldilməsi istiqamətində müvafiq tapşırıqlar verilib.

***R.HÜSEYNOVA***

## YAP Yasamal rayon təşkilatında gənclərlə görüş keçirildi

Dünən Yeni Azərbycan Partiyası Yasamal rayon təşkilatı ərazi ilk partiya təşkilatı Zahid Xəlilov-23 ünvanında olan gənclərlə görüş keçirildi. Tədbirdə çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov Yeni Azərbaycan Partiyasının Ümummilli Lider Heydər Əliyev tərəfindən 1992-ci il noyabrın 21-də ölkəmizin ağır sınaqlara məruz qaldığı dövrdə yaradıldığını qeyd edərək, həmin dövrdə mövcud olan ictimai-siyasi proseslərə nəzər saldı. Qeyd etdi ki, o dövrdə siyasi hakimiyyətdə olanların səriştəsizliyi üzündən vətəndaş müharibəsinə rəvac verildi, milli dövlətçiliyimiz ikinci dəfə məhv olmağın bir addımlığına gətirildi. Belə bir zamanda, xalqın təkidi ilə Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə gəldi: "Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycanın siyasi hakimiyyətinə gəlməsəydi, indi nə Azərbaycandan, nə də ölkəmizdəki bugünkü əmin-amanlıqdan və inkişafdan danışmaq olmazdı".





O bildirdi ki, bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, dünyanın nüfuzlu təşkilatlarının Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etməsi, ölkəmizin seçdiyi yolun düzgün olduğunu təsdiqləyir.

Rayon təşkilatının sədri YAP-ın Cənubi Qafqazın ən böyük partiyası olduğunu, hazırda partiya üzvlərinin sayının 750 minə yaxın olduğunu bildirdi. Natiq partiyanın dövlətin və cəmiyyətin davamlı inkişafına daim xidmət etdiyini, partiya üzvlərinin cəmiyyətin siyasi həyatında mühüm rol oynadığını vurğuladı. YAP Yasamal rayon təşkilatının fəaliyyəti, həyata keçirdiyi tədbirlərlə bağlı ətraflı məlumat verdi.

Tədbirdə çıxış edən YAP Yasamal rayon təşkilatının sədr müavini Bəxtiyar Nəbiyev Yeni Azərbaycan Partiyasının ictimai-siyasi həyatda mühüm rolundan danışaraq, ölkədə hakim partiya olduğunu bildirdi.

Ölkəmizdə həyata keçirilən uğurlu gənclər siyasətindən və bütün sahələr üzrə gənclərin hərtərəfli inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü islahatlardan danışdı. Bildirdi ki, bu gün Azərbaycan gəncləri müstəqil dövlətimizin fəal qurucularıdır. Bu, böyük xoşbəxtlikdir. Hər bir azərbaycanlı kimi, gənclərimiz də belə qüdrətli bir ölkənin vətəndaşları olduqları üçün fəxr edir, qürur duyurlar. Azərbaycanın hərtərəfli inkişafında fəallıq göstərən gənclərimiz müxtəlif sahələrində çalışmaqla, ölkəmizin ümumi inkişafına böyük töhfələr verirlər.

Sonra gənclərin ictimai-siyasi fəallığının artırılması, Azərbaycan gənclərinin tutduğu mövqe və digər bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Sonda gənclər də, öz növbəsində, bu cür görüşün təşkil edildiyinə və onlarla birgə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsinin və diskussiyanın aparıldığına görə təşəkkürlərini bildirdilər.

***Nəzakət ƏLƏDDİNQIZI***

# 30 il müharibə şəraitində yaşayan xalqın həyat eşqi

*Əhalinin siyahıya alınması*

*Hər bir dövlətin həqiqi sərvəti onun insanlarıdır*

## Siyahıyaalmanın tarixi

Apardığımız araşdırmalara əsasən deyə bilərik ki, əhalinin ilk siyahıya alınması qədim dövrlərdə dövlətlərin vergi və hərbi fəaliyyətləri və onların inzibati quruluşunun vəzifələri ilə əlaqədar həyata keçirilmişdir. Tarixi mənbələr göstərir ki, hətta qədim Hindistan qanunlarında, Manu hökmdarları, güclərini öyrənmək və vergiləri təyin etmək üçün sakinlərin sayını nəzərə almağı əmr ediblər. Misirdə əhalinin sayılmasına e.ə. 2800-2250-ci illərdən başlanmışdı. Tarixi mənbələrdə qədim Mesopotamiyada əhalinin sayına dair məlumatlar var. Bundan başqa əhalinin qədim Çin və Yaponiyada qeydə alındığına dair sübutlar vardır. Adətən o dovrlərdə əhalinin sayları hərbi və maliyyə məqsədləri üçün istifadə edilirdi. Amerikada isə avropalılar tərəfindən müstəmləkə olunduqdan bir müddət əvvəl həyata keçirilmişdir.

Müqəddəs Kitabın Əhdi-Ətiq Padşahlarının İkinci Kitabında çar Davudun təşkil etdiyi siyahıyaalma təsvir olunur: Həmin kitabda qeyd olunur ki, çar onunla birlikdə olan sərkərdə Yoaba deyir ki, Danidən Bathsheba'ya qədər İsrailin bütün qəbilələrini gəzin və insanların sayını sayın ki, xalqımızın sayını bilim. Qədim Yunanıstanda, e.ə. 4-cü əsrin sonunda, bütün yetkin kişilər sayılırdı və eramızdan əvvəl 435-ci ildən bəri Qədim Romada mütəmadi olaraq həyata keçirilirdi. Fiskal məqsədlər və ya xüsusi hallar üçün isə əhalinin vaxtaşırı tədqiqatları erkən orta əsrlərdə aparılmışdır. Məsələn, 1086-cı ildə İngiltərədə Fatih Uilyamın əmri ilə 34 mahalda əhali sayılıb, nəticələr Qiyamət Kitabı adlandırıldı. Avropanın bir sıra şəhərlərində 1449-cu ildə Nürnberqdə, Strasburqda (1473), Sürixdə (və kanton boyunca) (1567) və Florensiyada (1427-1430) ev təsərrüfatları sayılaraq siyahıya alınmışdı. Novqorod Respublikasında və bəzi rus knyazlıqlarında, 13-cü əsrin ikinci yarısından etibarən vergi tutulması üçün əhalinin siyahıyaalınması aparılmışdı. Rusiyada maliyyə məqsədləri ilə ilk siyahıyaalma 1245-ci ildə aparılıb. Avropa ölkələrindən Avstriya, Bavariya, Hollandiya, Danimarka, İspaniya, Asiyada Yaponiya, Amerikada 18-ci əsrin ortalarından əhalinin qeydiyyata alınmasına cəhdlər edilib.

1718-ci ildə seçki vergisinə keçərkən I Pyotr ümumi əhali siyahıyaalması ilə bağlı bir sərəncam imzalayıb və bunu "vergi yoxlamaları" adlandırıb. İlk tam siyahıyaalma 1790-cı ildə ABŞ-da baş tutdu.

Şərqi Avropa və MDB dövlətləri arasında öncüllərdən olaraq demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi məqsədi ilə ölkəmizdə Demoqrafik İnkişaf Konsepsiyası hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 290 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. Sözügedən Konsepsiya milli maraqlar nəzərə alınaraq Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmiş bir sıra müvafiq beynəlxalq sənədlərin prinsiplərinə əsaslanmışdır. Bu Konsepsiya ölkəmizdə əhali sakinliyinin inkişafı sahəsində davamlı siyasətin hazırlanmasına və həyata keçirilməsinə təkan vermişdir.




Əhalinin siyahıyaalınmasının yekunları və cari uçot məlumatları əsasında əldə olunan demoqrafik göstəricilər ölkənin sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının işlənib hazırlanmasında və həyata keçirilməsində əhəmiyyətli rol oynayır. Əhalinin siyahıyaalma məlumatları cəmiyyətin inkişaf meyillərinin düzgün öyrənilməsi üçün çox əhəmiyyətli rəsmi statistika olmaqla yanaşı, baza xarakterli statistik məlumatların əldə edilməsinin əsas mənbəyidir.

## Azərbaycanda siyahıyaalınma - "Heç kimin kənarda qalmaması"

Azərbaycan Respublikası Prezidentinin 7 sentyabr 2016-cı il tarixli 140 nömrəli Fərmanına əsasən 2019-cu ilin 1-10 oktyabr tarixlərində ölkəmizdə əhalinin növbəti siyahıyaalınmasının keçirilməsi nəzərdə tutulmuşdur. Həmin Fərmana uyğun olaraq ölkəmizdə əhalinin siyahıyaalınma işlərinə başlanılmışdır və uğurla davam etdirilir.

Şübhəsiz ki, "Heç kimin kənarda qalmaması" prinsipi ilə növbəti inkişaf mərhələsinə qədəm qoymaqla, yoxsulluq, sağlam həyat şəraiti, inklüziv və bərabər keyfiyyətli təhsil, layiqli məşğulluq, gender bərabərliyi, sanitariya, enerji təchizatı və sair məsələlər əhatə olmaqla insan inkişafının əsas sosial və iqtisadi amillərinin kəmiyyət və keyfiyyətinin məqbul səviyyəsinə nail olunması yönündə kompleks proqramların həyata keçirilməsi zəmanəmizin çox ciddi çağırışlarındandır.

Belə ki, dünya birliyinin qəbul etdiyi bugünkü və gələcək nəsillərin inkişafı baxımından fundamental əhəmiyyət kəsb edən 17 qlobal məqsəd və 169 hədəfdən ibarət "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" ("Gündəlik-2030") cəmiyyətin yeni inkişaf mərhələsinin başlanğıcı olmaqla əhali haqqında yüksək keyfiyyətli, aktual, etibarlı və daha müfəssəl məlumatların mövcudluğunu ön plana çəkir. Yəni, "Gündəlik-2030"dan irəli gələn vəzifələr dayanıqlı inkişaf üzrə yeni milli strategiyaların, proqramların və fəaliyyət planlarının hazırlanmasını tələb edir ki, bu da öz növbəsində insanları xarakterizə edən gəlir, cins, yaş, əlillik, miqrasiya statusu, dini, etnik mənsubiyyəti, coğrafi məskunlaşma və milli şəraitə uyğun digər əlamətlərə görə məlumatlara malik olmadan mümkün deyildir. Göründüyü kimi, insan haqqında belə ətraflı məlumatlara olan ehtiyac "Hər bir dövlətin həqiqi sərvəti onun insanlarıdır" paradiqmasını bir daha təsdiq edərək insan inkişafının nə dərəcədə önəmli olduğundan açıq-aydın xəbər verir.

Təsadüfi deyil ki, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla, ölkədə insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması, vətəndaş cəmiyyətinin ictimai həyatda fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdır. Odur ki, ölkəmizin iqtisadi inkişafının insan kapitalını formalaşdıran əhalinin sosial rifahı daim dövlətin diqqət mərkəzində olub. Prezident İlham Əliyevin "İnsan amili bizim siyasətimizin prioritetidir" - sözləri bu fikrin təsdiqidir. Bu əsasla "insanlar haqqında ətraflı statistik məlumatlara olan tələbat həyatın demək olar ki, bütün sahələrində iqtisadi, sosial, siyasi, humanitar-mədəni və sair sahələrdə səmərəli inkişaf siyasətinin formalaşdırılması üçün hazırda ciddi amilə çevrilmişdir" - desək heç də yanılmarıq.

"Gündəlik-2030"dan irəli gələn milli öhdəliklərlə əlaqədar qarşıya qoyulmuş məqsəd və hədəflərə nailolma vəziyyətinin monitorinqi, habelə bu sahədə müəyyən edilmiş sosial-iqtisadi siyasət kursuna uyğun çevik idarəetmənin təmin edilməsi üçün əhalinin demoqrafik vəziyyəti barədə dəqiq və dolğun statistik məlumatlara, davamlı informasiya dəstəyinə olan tələbat ölkəmizdə əhalinin növbəti siyahıyaalınmasının həyata keçirilməsini şərtləndirir.

Əhalinin siyahıyaalınması mühüm dövlət tədbiridir. Geridə qoyduğumuz dövrdə Azərbaycanda əhalinin 9 dəfə siyahıyaalınması baş tutub ki, bunlardan birincisi 1897-ci ildə Çar Rusiyası, digər altısı 1926-cı, 1939-cu, 1959-cu, 1970-ci, 1979-cu, 1989-cu illərdə Sovet İttifaqı və nəhayət son ikisi də 1999-cu, 2009-cu illərdə müstəqillik dövrünə aiddir. Bu siyahıyaalmalar zamanı ölkəmizin əhalisi haqqında ətraflı məlumatlar toplanılıb. Azərbaycan Respublikasında 1999-cu ildə keçirilmiş ilk milli siyahıyaalmanın nəticələrinin ilkin təhlili göstərir ki, müstəqillik qazandığı son 8 il ərzində (1991 - 1998-ci illərdə) ölkə əhalisinin sayı 10,7% artaraq 7186,6 min nəfərdən 7952,5 min nəfərə, o cümlədən şəhər əhalisinin sayı 6,4% artaraq 3864,9 min nəfərdən 4112,3 min nəfərə, kənd əhalisinin sayı isə 15,6% artaraq 3321,7 min nəfərdən 3840,2 min nəfərə çatmışdır. Bunlarında 3 883 155 nəfəri kişi, 4 070 283 nəfəri isə qadınlar təşkil etmişdir. 2009 -cu ildə isə Azərbaycan əhalisinin sayı 8 922 447 nəfər olmuşdur. Bütövlükdə 1999-2009-cu illər ərzində əhalinin sayı 969 min nəfər və ya 12,2% artaraq 1999-cu ildəki 7.953,4 min nəfərdən, 2009-cu ildə 8.922,3 min nəfərə çatmışdır. Orta illik artım 96,9 min nəfər və ya 1,2% olmuşdur.

## Azərbaycanda urbanizasiya - istiqamət əyalət şəhərləri

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sosial-iqtisadi siyasəti yeni dövrün çağırışlarına cavab verərək urbanizasiya məfhumuna yeni baxışı ortaya qoyur. Əgər əvvəllər Azərbaycanda urbanizasiya əyalətlərdən Bakıya olan daxili miqrasiyanı ehtiva edirdisə, hazırda miqrasiya vektorları əyalət şəhərlərinə istiqamətlənib. Yeni dövrdə urbanizasiya müstəqilliyin ilk illərində olduğu kimi, Bakının geridə qalmış regionların fonunda sürətlə böyüməsinə xidmət etmir.

*Ardı Səh. 11*

# 30 il müharibə şəraitində yaşayan xalqın həyat eşqi

*Əhalinin siyahıya alınması*

Əvvəli səh. 10

Əksinə, regional inkişafın lokomotivi ola biləcək əyalət şəhərləri sürətlə inkişaf etməklə urbanizasiyanın müsbət nəticələr verməsini göstərən lakmusa çevrilir.

Son illər Azərbaycanda şəhərlər coğrafi genişlənmə ilə yanaşı, həm də əhalinin sayında xüsusi çəkisinə görə öz mövqelərini gücləndirir. Müstəqilliyin ilk illərində Azərbaycanda şəhər əhalisinin xüsusi çəkisi azalmağa başladı və Dövlət Statistika Komitəsinin məlumatına görə, 1999-cu ildə 51,1 faizə düşdü. 2002-ci ildən şəhər əhalisinin sayının artması prosesi baş verib. 2012-ci ildə 9 milyon 235 min nəfər əhalinin 52,9 faizi, başqa sözlə, 4 milyon 889 min nəfəri şəhərdə yaşayıb. Təkcə son 10 ildə Azərbaycanda şəhər əhalisinin sayı təxminən 700 min nəfər artıb. Özü də bu artımın yalnız 276 mini məhz paytaxt şəhəri Bakının hesabına baş verib. Beləliklə, əyalət şəhərlərində əhalinin artım sürəti Bakı ilə müqayisədə daha sürətlə gedir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2002-2012-ci illərdə Bakının əhalisi 14,9 faiz artdığı halda, Azərbaycanın digər şəhərlərində artım 17,9 faiz olmaqla paytaxtı 3 faiz bəndi üstələmişdir. Şəhər əhalisinin artımında təkcə Bakı və digər şəhərlərin arasında deyil, həm də regionların daxilində də nisbət dəyişir.

Məsələn, Azərbaycanın Naxçıvan Muxtar Respublikasında şəhər əhalisinin xüsusi çəkisi 2002-ci ildəki 26,7 faizdən 2012-ci ildə 29,1 faizə çatıb. Beləliklə, məntiqi olaraq Azərbaycanda əhalinin ən sürətlə artımı paytaxtda və kəndlərdə deyil, məhz region şəhərlərində baş verir. Son illər Azərbaycanın regionlarındakı şəhərlərdə infrastrukturun (xüsusilə yol, elektrik, təbii qaz, kanalizasiya təminatı və s.) yaxşılaşdırılması, abadlıq işləri və yeni iş yerlərinin yaradılması kiçik və orta şəhərlərin əhali və biznes üçün daha əlverişli olmasına gətirib çıxarıb. Hətta dövlət büdcəsi də şəhərlərin öncüllük etdiyi regional inkişafı hiss edir: 2012-ci ildə Azərbaycan Respublikasında şəhər və rayonların yerli gəlirlərinə aid olan məbləğ 499,4 milyon manat və ya 2011-ci illə müqayisədə 11,7 faiz artmışdır. Beləliklə, urbanizasiya yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsaitin azalmasına xidmət edir və mərkəzi hakimiyyətin yükünü azaldır.

Azərbaycanda urbanizasiyanın keyfiyyət və kəmiyyət etibarilə yeni mərhələyə qədəm qoymasının əsasında ilk növbədə 2004-2008-ci və 2009-2013-cü illərdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramları dayanır. Bunun nəticəsidir ki, Azərbaycanın kiçik və orta şəhərləri urbanizasiyanın aşırı təzyiqi ilə üzləşmir, əksinə, ur-



banizasiya və şəhərlərin inkişaf tempi dialektik vəhdətdə olmaqla sinxronlaşdırılıb.

Azərbaycanda urbanizasiya prosesi kəndlərin tamamilə silinməsi anlamına gəlməməlidir. Əksinə, kənd təsərrüfatının modernləşdirilməsi və məhsuldarlığın artırılması nəticə etibarilə rəqabət qabiliyyətinin yüksəlməsinə gətirəcək. Kənd təsərrüfatı sahəsində qənaət edilən əmək resursları isə urbanizasiya prosesi çərçivəsində şəhərə transfer edəcək. Bu gün dünyada sürətlə genişlənən "rəqəmsal nəsil" Azərbaycanda da formalaşır və əmək resurslarının keyfiyyət və kəmiyyət etibarilə yeni mərhələyə qədəm qoyması prosesinə öz töhfəsini verir.

Prezidentin yanında Strateji Araşdırmalar Mərkəzinin (SAM) apardığı tədqiqat sübut edir ki, şəhərlər cəmiyyətin dayanıqlığını təmin edən orta təbəqənin formalaşmasında mühüm rol oynayır. Məsələn, Azərbaycanda orta təbəqənin əsas hissəsi şəhərlərdə yaşayır. Tədqiqat nəticələri şəhərlərin əhalinin təhsil səviyyəsinin artmasına daha çox təsir göstərdiyini sübut edir. Belə ki, SAM-da aparılan tədqiqatlar sübut edir ki, ali təhsilli orta təbəqənin böyük bir qismi yerli şəhərlərdə və ya böyük əksəriyyət Bakıda formalaşmışdır. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında deyilir ki, indidən ənənəvi iqtisadiyyatdan bilik iqtisadiyyatına keçidin əsası qoyulmalı, bunun üçün həlledici olan insan kapitalının adekvat inkişafı ön plana çəkilməlidir. Şəhər mühiti insan kapitalının inkişafı və bilik iqtisadiyyatının qurulması üçün yaxşı zəmin hazırlayır.

## İqtisadi yüksəliş və demoqrafik dirçəliş

Azərbaycan dövləti hazırda işğal altında olan ərazilərdə də işğaldan sonra urbanizasiya siyasətini həyata keçirmək niyyətindədir. Bununla əlaqədar Azərbaycan



Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Füzulinin bərpası, işğaldan azad edilmiş torpaqların inkişafı, burada görülən işlər Azərbaycan dövlətinin gücünü göstərir. Onu göstərir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəndən sonra hazırda işğal altında olan bütün ərazilər də belə gözəl, abad yerlərə çevriləcək. Bütün yaşayış məntəqələri, bütün kəndlər, o cümlədən Şuşa və Xankəndi şəhərləri Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra qurulacaq, yenidən tikiləcək və Azərbaycan vətəndaşları orada yaşayacaqlar. Hər birimiz öz işimizlə o tarixi günü yaxınlaşdırırıq".

Beləliklə, Azərbaycan dövləti urbanizasiya prosesini qısa, orta və uzunmüddətli dönəmdə sistemli olaraq nəticəyə hesablanmış bir siyasət olaraq həyata keçirir. Urbanizasiya Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması və əhalinin sosial rifahının yaxşılaşdırılması, habelə onun dünyagörüşünün və həyat tərzinin qlobal çağırışlarla uzlaşdırılması məqsədlərinə xidmət edir.

1999-2012-ci illər. Bu on üç illik dövr Azərbaycanın stabil iqtisadi yüksəliş və demoqrafik dirçəliş mərhələsinə qədəm qoyması ilə fərqlənən bir dövr kimi təsbit edilmişdir. Bu dövrdə Azərbaycanda neft istesalı sürətlə artmış və illik neft istehsalı sovet dövründəki 40-cı illərin ən yüksək istehsal səviyyəsi ilə müqayisədə 2 dəfə, 90-cı illərin səviyyəsi ilə müqayisədə isə beş dəfə yüksək olmuşdur. Nəticədə Azərbaycan iri neft ixracatçısına çevrilmişdir. Eyni zamanda neftin beynəlxalq bazarlarda qiyməti 2008-ci ilin ortalarına qədər durmadan sürətlə artmış və 90-cı illərin əvvəlləri ilə müqayisədə 8-10 dəfə baha olmuşdur. Beləliklə bu dövrdə Azərbaycan böyük neft gəlirləri sayəsində iqtisadi inkişaf templərinə görə dünyanın birinci dövləti olmuşdur. Bu dövrdə Azərbaycanın dövlət büdcəsi də analoqu olmayan templə artaraq 2008-ci ildə 1999-cu ilə nisbətən 10 dəfədən çox olmuşdur. Müqayisə üçün göstərək ki, qonşu Gürcüstan və Ermənistanın dövlət büdcələri birlikdə Azərbaycanın büdcəsindən dəfələrlə geri qalır. Şübhəsiz ki, Azərbaycandakı bu iqtisadi yüksəliş əhalinin gəlirlərinin xeyli yüksəlməsinə, yeni iş yerlərinin yaranmasına və bütövlükdə əhalinin rifah səviyyəsinin yaxşılaşmasına səbəb oldu. Bu da öz növbəsində Azərbaycandan kənara gedənlərin sayının, xüsusilə də gənclərin sayının azalmasına və onların əhalinin tərkibində xüsusi çəkisinin artmasına səbəb olmuşdur. Eyni zamanda 1999-2009 illərdə qadın əhalisi arasında fertil yaşlarda (15-49 yaşlar) olan qadınların və ümumi əhalinin tərkibində nigah yaşına daxil olan gənc oğlan və qızların xüsusi çəkisinin artması burada nigaha daxil olanların sayının və əhalinin doğum səviyyəsinin artmasına gətirib çıxarmışdır. 1998-2011-cu illərin statistik məlumatlarından aydın olur ki, bu dövrdə ölkəmizdə həm boşanmaların, həm də ölənlərin sayının artmasına baxmayaraq, diri doğulan uşaqların sayının ölənlərin sayına nisbətən daha sürətlə artması nəticəsində əhalinin təbii artımı xeyli yüksəlmişdir.

Bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, xalqımız əzmkarlığı ilə dövlət müstəqilliyini bərpa etdikdən sonra, məhz ümummilli lider Heydər Əliyevin möhkəm və uzaqgörən siyasi iradəsi ilə yenidən milli-mənəvi birliyinə qovuşub, öz əhalisi haqqında dolğun məlumatlardan ilk dəfə 1999-cu ildə müstəqil Azərbaycan Respublikasında keçirilmiş əhalinin siyahıyaalınması sayəsində agah olub. Belə ki, 1989-cu ildən etibarən, yəni ictimai-siyasi mühitin və şəraitin kəskin şəkildə dəyişdiyi dövrdən 10 il sonra müasir statistika tariximizdə ilk dəfə əhalinin dövlət səviyyəsində siyahıyaalınması Ulu Öndərin "1999-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" 1996-cı il 22 fevral tarixli Sərəncamı ilə baş tutub.

Uzun illər davam edən müharibə şəraitinin əhalinin həyat və məişətində dərin izlər buraxdığına baxmayaraq, həmin siyahıyaalmadan keçən dövr ərzində ölkədə aparılan müasir və çoxşaxəli islahatlar əhalinin artımı və həyat şəraitinin yaxşılaşmasında öz töhfəsini verib. Odur ki, sürətlə inkişaf edən müasir Azərbaycanda əhali haqqında geniş və dolğun məlumatların əldə edilməsinin zəruriliyi bir fakt kimi dövlətin qarşısında dayanıb. Bu məqsədlə müstəqil Azərbaycanda əhalinin ikinci siyahıyaalınması 10 il sonra Prezidenti İlham Əliyevin 2006-cı il 7 iyun tarixli Fərmanına əsasən, 2009-cu il aprelin 13-22-də keçirilib.

Nəzərə alsaq ki, ötən 10 il ərzində ölkə əhalisinin demoqrafik göstəriciləri xeyli dəyişib, bu halda əhali haqqında yeni demoqrafik məlumatların toplanması üçün yeni siyahıyaalmanın keçirilməsi qaçılmaz zərurətdir. Unutmaq olmaz ki, 2009-cu ildə 8 milyon 922,4 min əhalisi olan Azərbaycanda növbəti siyahıyaalma ərəfəsində 10 milyonuncu sakin qeydiyyata alınıb.

Ardı Səh. 12

# 30 il müharibə şəraitində yaşayan xalqın həyat eşqi

## *Əhalinin siyahıya alınması*

Əvvəli səh. 11

Əhalinin siyahıyaalınması baza xarakterli statistik məlumatların əldə edilməsinin əsas mənbəyidir. Müasir dövrdə sosial-iqtisadi proseslərin idarə olunmasında, informasiya məkanının formalaşdırılmasında, ölkələrin inkişaf səviyyəsinin qiymətləndirilməsində sosail siyasətin, daxili, xarici, hərbi siyasətin uyğunlaşdırılması, milli təhlükəsizlik konsepsiyasının tələblərinin nəzərə alınması baxımından rəsmi statistikanın əhəmiyyəti daha da artıb. Bu gün statistika məlumatı olmadan dünyada mühüm qərarların qəbul edilməsi mümkün deyil və qlobal səviyyədə baş verən proseslər də göstərir ki, dəqiq statistika olmadan dayanıqlı inkişafa nail olmaq mümkün deyil. Bir tərəfdən müasir problemlərin həlli istiqamətində çevik qərarların qəbul edilməsi, onların icra vəziyyətinin qiymətləndirilməsi üçün adekvat informasiya təminatının təşkili zərurəti, digər tərəfdən isə "Gündəlik-2030" da qarşıya qoyulmuş məqsəd və hədəflərə çatma vəziyyətinin monitorinqi, müəyyən edilmiş sosial-iqtisadi siyasət kursuna uyğun çevik idarəetmənin təmin edilməsi üçün dəqiq və dolğun statistik məlumatlara olan tələbat rəsmi statistikanın aktual məlumat bazaları əsasında istehsalını şərtləndirir. Etiraf edilməlidir ki, belə məlumat bazaları da ilk növbədə ənənəvi qaydada toplanan siyahıyaalma məlumatları ilə yaradılır.

Əhalinin iqtisadi ehtiyacları və davranışları ictimai həyatın müxtəlif mərhələlərində fərqlənir və onların yaş-cins strukturunda baş verən dəyişikliklər ümumi sosial-iqtisadi fəaliyyətə əhəmiyyətli dərəcədə təsir göstərir. Buna görə də, dayanıqlı inkişaf üçün əhalinin sayı, tərkibi, məşğulluq vəziyyəti, təhsili, məskunlaşması və digər demoqrafik xüsusiyyətləri, eləcə də artım tendensiyası haqqında məlumatlar mühüm əhəmiyyət kəsb edir. Qeyd olunmalıdır ki, bütün ölkə əhalisi üzrə cins, yaş, doğulduğu yer, yaşayış yeri, daimi və ya müvəqqəti yaşama, müvəqqəti qaib olma, vətəndaşlıq vəziyyəti, milli (etnik) mənsubiyyəti, ailə vəziyyəti, təhsil səviyyəsi, əlillik və sağlamlıq durumu, qaçqın və ya məcburi köçkün statusu, gəlir mənbələri, məşğulluq statusu, mənzil-məişət şəraiti və sair başqa əlamətlərə görə dolğun məlumatlar bir qayda olaraq vahid şəkildə yalnız əhalinin siyahıyaalınması yolu ilə əldə edilir. Bu məlumatlar ev təsərrüfatlarının tədqiqi üçün elmi əsasda seçmə məcmunu təşkil edir.

Əhalinin siyahıyaalınması ən kiçik coğrafi ərazi vahidləri belə əhatə olunmaqla bütün ölkə ərazisində yaşayan əhalinin sayının və seçilmiş sosial-demoqrafik göstəricilərə dair məlumatların mütəmadi zaman intervalları ilə rəsmi uçotunu aparmağa (və ya məlumatları tutuşdurub yoxlamağa) imkan verən tədbirdir. Bu tədbir fərdi məlumatların (respondentlərlə sorğu aparılması yolu ilə və ya reyestrlərdəki məlumatların istifadəsi əsasında) toplanılması, emalı və ümumiləşdirilməsi prosesini, habelə demoqrafik, iqtisadi və sosial məlumatların qiymətləndirilməsi, dəqiqliyinin müəyyənləşdirilməsi, təhlili və yayılması prosesini özündə ehtiva edir. Göründüyü kimi, əhalinin siyahıyaalınması baza xarakterli statistik məlumatların əldə edilməsinin əsas mənbəyidir və yalnız daimi yaşayan şəxslər barəsindəki məlumatları deyil, müvəqqəti yaşayan şəxslərə, vətəndaşlığı olmayan şəxslərə, qaçqınlara və məcburi köçkünlərə, evsiz şəxslərə və ya köçəri əhali qruplarına dair məlumatları ümummilli səviyyədən tutmuş ayrı-ayrı kiçik yaşayış məntəqələrinə qədər bir çox müxtəlif coğrafi vahidləri əhatə edən statistik göstəricilər formasında təqdim və təhlil etməyə imkan verir.

### Siyahıyaalma anlayışına xas olan əsas prinsiplər...

Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına dair göstəricilər üzrə statistik məlumatların istehsalında əhalinin siyahıyaalınması əvəzedilməz rola malikdir. Azərbaycan Minilliyin Bəyannaməsinə qoşulmaqla "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı", eləcə də "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın uğurlu icrası ilə yoxsulluqla mübarizə sahəsində kompleks tədbirlər həyata keçirilib. Ötən illər ərzində Minilliyin İnkişaf Məqsədləri üzrə bir çox hədəfləri, xüsusilə insanların sağlamlığının qorunması, ətraf mühitin yaxşılaşdırılması, yoxsulluğun aradan qaldırılması, əhalinin təhsil səviyyəsinin yüksəldilməsi, gender bərabərliyinin təşviq və təmin olunması üzrə mühüm nailiyyətlər əldə edib. Danılmaz həqiqətdir ki, 2015-ci ildə yalnız əhalisinin 4,9 faizi milli yoxsulluq həddindən aşağı səviyyədə yaşayan respublikamız BMT-nin üzvü olan dövlətlərin Dayanıqlı İnkişaf Sammitində təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) qoşulub. Bu qlobal məqsədlərə milli səviyyədə nail olunması yalnız ölkəmizdə daha dayanıqlı, əhatəli və şaxələndirilmiş iqtisadiyyatın inkişaf etdirilməsi, o cümlədən sosial sahələrin tarazlı inkişafının təmin edilməsi üçün adekvat siyasi iradə ilə mümkündür. Prezident İlham Əliyev "Bizim siyasətimiz uzunmüddətli siyasətdir. Biz ölkəmizin gələcəyi, uzunmüddətli, dayanıqlı inkişaf haqqında düşünürük" - sözləri ilə dövlətin bu iradəsini açıq-aşkar nümayiş etdirməklə bərabər, milli inkişaf gündəliyimizin əsas prioritetlərini müəyyən edir.




Qeyd edilməlidir ki, "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 oktyabr tarixli Fərmanına əsasən, Azərbaycan üçün əhəmiyyət kəsb edən, Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun müəyyən edilmiş milli prioritetlər və onlara dair göstəricilər ölkəmizdə dayanıqlı inkişaf sahəsində aparılacaq islahatların əsas istiqamətlərindən xəbər verir. Bununla əlaqədar olaraq, əsas sosial-iqtisadi sahələri əhatə edən problemlərin həllinə ünvanlanacaq dövlət proqramları və strategiyaların hazırlanması zamanı ilk növbədə demoqrafik məlumatlar əsasında statistik qiymətləndirilmələrin aparılması tələb olunacaq. Qeyd etmək yerinə düşər ki, dayanıqlı inkişaf kontekstində cəmiyyətin bütün üzvlərinin tam rifahına, azad və hərtərəfli inkişafına nail olunmasına zərurətin yarandığı bir dövrdə insanla bağlı aktual məlumatlar xüsusi əhəmiyyətlidir.

Müəyyən yaş qrupunda olan qadınlar arasında doğum səviyyəsi, nikaha (rəsmi və ya qeyri-rəsmi) daxilolma vəziyyəti, əhalinin yaş qrupları və cins bölgüsündə savadlılıq və riyazi savadlılığın ən az müəyyən edilmiş funksional səviyyəsi, işləməyən, təhsil almayan və ya peşə təlimi keçməyən gənclərin xüsusi çəkisi, habelə elektrik enerjisinə çıxışı olan əhalinin xüsusi çəkisini xarakterizə edən DİM göstəricilərini əhalinin siyahıyaalınmasının keçirilməsi üçün nəzərdə tutulan sorğu anketlərinin məlumatlardan birbaşa əldə ediləcək.

Bununla yanaşı, DİM-ə nail olunmasına dair göstəricilər üzrə statistik məlumatların istehsalında əhalinin siyahıyaalınmasının rolu onunla ölçülür ki, əhalinin siyahıyaalınması konkret DİM göstəriciləri barədə birbaşa məlumat mənbəyi olmaqla bərabər, insanla bağlı göstəricilərə dair məlumatların əldə edilməsi üçün ev təsərrüfatlarında aparılacaq statistik müayinələr üzrə seçmə məcmunun formalaşdırılmasında ilkin istinad mənbəyi olacaq.

DİM üzrə bəzi nisbi göstəricilərə dair hesablamaların aparılmasında illik dövriliklə əhalinin sayına dair məlumatlar tələb olunur ki, belə məlumatları ölkəyə gələn və ölkədən gedənlər arasındakı fərq də nəzərə alınmaqla ötən siyahıyaalmanın məlumatı və ondan sonrakı dövrdə doğulan və ölənlərin uçotu əsasında müəyyən edilən əhalinin cari sayı ilə müəyyən olunur.

Dayanıqlı İnkişaf Məqsədləri üzrə statistikanın təşkili sahəsində beynəlxalq təcrübə də onu göstərir ki, hazırda göstəricilər üzrə yüksək keyfiyyətli statistika məlumatlarının ev təsərrüfatlarında aparılan sorğu yolu ilə əldə edilməsi həlli də gündəmdə qalır. Əlbəttə ki, ənənəvi olaraq siyahıyaalma anlayışına xas olan əsas prinsiplər DİM göstəriciləri üzrə məlumatların keyfiyyətinin təmin edilməsi üçün danılmaz faktdır. Yəni, mütəmadi dövriliklə keçirilən siyahıyaalma zamanı uçota alınan hər bir şəxs barədə məlumatlar elə toplanılır ki, onların xarakteristikalarını ayrıca qeydə almaq mümkün olur. Bu, müxtəlif əlamətlərin çarpaz təsnifatını aparmağa və bir neçə əlamət üzrə məlumatlar əldə etməyə imkan verir. Siyahıyaalmanın gedişində şəxslər barədə əldə edilən məlumatlar dəqiq müəyyən edilən konkret vaxta (siyahıyaalma anına) aid olur. Siyahıyaalma yolu ilə fərdlərin, ev təsərrüfatlarının və yaşayış vahidlərinin ümumi sayı barədə məlumatların əldə edilməsi təmin edilir. Əhalinin uçotu siyahıyaalma anına ölkənin dəqiq müəyyən edilən ən kiçik coğrafi ərazi vahidlərində yaşayan kiçik əhali qrupları səviyyəsində də hər bir şəxsin xarakteristikaları barədə məlumat əldə etməyə imkan verir.

Burdan da belə qənaətə gəlmək olar ki, dayanıqlı inkişaf siyasətinin işlənib hazırlanması üçün əhali haqqında ən dolğun məlumatlar məhz əhalinin siyahıyaalınması yolu ilə əldə edilə bilər. Bir sözlə, indiki və gələcək nəsillər üçün dayanıqlı inkişaf proqramlarının işlənib hazırlanması və insanların rifah halının yaxşılaşdırılması məqsədilə hazırkı siyahıyaalmada aktiv iştirak həyati vacib dərəcədə əhəmiyyətlidir. Hal-hazırda ölkəmizdə keçirilən əhalinin növbəti siyahıyalınmasının yekunları nəticəsində əldə ediləcək statistik məlumatlar Azərbaycanın gələcək inkişaf prioritetlərinin düzgün müəyyənləşdirilməsində əsas informasiya mənbəyi rolunu oynayacaqdır.

***"Səs" qəzetinin sifarişi əsasında hazırlanmışdır. "Resurs" Analitik İnformasiya Mərkəzi***

## Əczaçılıqla məşğul olan şəxslər mənfəət vergisi ödəməlidirlər

Hüquqi şəxs müvafiq lisenziya almaqla əczaçılıq fəaliyyəti ilə məşğul olduğu təqdirdə sadələşdirilmiş verginin ödəyicisi ola bilərmi? Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, Vergi Məcəlləsinə əsasən bina tikintisi fəaliyyətilə məşğul olan şəxslər istisna olunmaqla, lisenziya tələb edən fəaliyyət növü ilə məşğul olan şəxslər sadələşdirilmiş verginin ödəyicisi ola bilməzlər. Odur ki, əczaçılıq fəaliyyəti lisenziya tələb etdiyindən hüquqi şəxs mənfəət vergisinin ödəyicisi kimi fəaliyyət göstərməlidir.

## AZƏRTAC-ın xüsusi müxbiri macar ictimaiyyətini imzalanmış sənəd haqqında məlumatlandırıb

Macarıstanda çıxan populyar ingilisdilli "Daily News Hungary" nəşri oktyabrın 9-da Budapeştdə TÜRKSOY ilə Macarıstan arasında imzalanmış qarşılıqlı anlaşma haqqında Memorandum barədə AZƏRTAC-ın xüsusi müxbirinin məlumatını dərc edib (https://dailynewshungary.com/news_to_go/hungarian-government-signs-cooperation-agreement-with-turkic-organisation/).

AZƏRTAC xəbər verir ki, sənədi TÜRKSOY-un Baş katibi Düsen Kaseinov və Macarıstan İnsan Resursları Nazirliyinin dövlət katibi Zoltan Lyorintsi imzalayıblar. Məlumatda deyilir ki, Macarıstan 2018-ci ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında müşahidəçi statusu alıb. Onda Macarıstanın Baş Naziri Viktor Orban qurumun Qırğızıstanda keçirilən VI Sammitində iştirak edib.

# Həyasızlığın Əli Kərimli nümunəsi

## BŞBPİ: "Hər iki şəxs piketdən əvvəl törətdikləri əməllərinə görə saxlanılıb"

***Qondarma qurum olan "Milli Şura" razılaşdırılmış piket qaydalarını pozaraq, oktyabrın 8-də Bakı Şəhər İcra Hakimiyyətinin binası qarşısında qanunsuz yürüşə cəhd etdi. Bir qrup əvvəlcədən təxribatlar törətmək, polislə qarşıdurma yaratmağı planlaşdırmış AXCP üzvü xuliqanlıq hərəkətləri ilə asayişi pozmağa cəhd göstərdi. Hələ aksiya öncəsi, təxribatın təşkilatçılarından olan AXCP sədri Əli Kərimli sosial şəbəkələrdə məram və məqsədlərini anlamayan insanları piketə qoşulmağa və şəhərin mərkəzində itaətsizlik mühiti və hətta mümkün olacağı təqdirdə, qarşıdurma yaratmağa çağırmışdı.***

Bu isə, bir daha təsdiq etdi ki, "Milli Şura" təsisçilərinin niyyəti və məqsədləri heç də, sakit aksiya keçirmək deyil, yaradılmış imkandan istifadə edərək, öz məkrli niyyətlərini reallaşdırmaqdır. Bunu təsdiq edən daha bir tutarlı arqument isə təxribatçı qrupun təyin olunmuş yerdə deyil, fərqli, əvvəlcədən planlaşdırdıqları yerlərdə aksiyalar keçirməyə cəhd göstərdilər. Bu isə, bir daha onu göstərir ki, onların əsas məkrli planları yaradılmış imkandan istifadə edərək, öz məkrli niyyətlərini reallaşdırmaq, polislə qarşıdurma yaratmaqdır. Diqqətçəkən məqamlardan biri də, ondan ibarət oldu ki, aksiya çağırışı edən, sosial şəbəkələrdə barbar bağıran Cəmil Həsənli, Ə.Kərimli və digərləri piketçilər arasında görünmədilər. Sonradan məlum oldu ki, onlar qaçıb, sakit bir yerdə gizləniblər. Bununla yanaşı, Ə.Kərimlinin 50 nəfərlə "inqilab" etmək cəhdi AXCP və "Milli Şura" adlı qurumun miskin durumunu, verilən populist bəyanatlarının arxasında, heç bir real güc olmadığını açıq şəkildə nümayiş etdirdi. Ancaq bütün cəhdlər və məkrli planlara baxmayaraq, ictimai asayişin pozulması ilə müşayiət olunan küçə yürüşünə cəhdin və aksiya iştirakçılarının hüquqazidd əməllərinin qarşısı alındı.

### "Milli Şura"nın 50 nəfərlə şou yaratmaq cəhdi baş tutmadı

Araşdırma zamanı məlum oldu ki, küçəyə çıxıb, nalayiq hərəkətlər edən, söyüş söyən, təxribatlar törətməyə çalışan "Milli Şura" üzvlərinin bəziləri, bilavasitə Ə.Kərimli tərəfindən öyrədilmiş və təlimat almış şəxslərdir. Amma yenə də, şər və böhtan kampaniyasının aparıcı ideoloqları olan Ə.Kərimli və C.Həsənli hay-küy qaldıraraq, həbs edilənlərin bəzilərinin piket iştirakçısı olmaları səbəbindən, həbs olunduqlarını bildiriblər. Bakı Şəhər Baş Polis İdarəsi isə, yaydığı məlumatda bu cür informasiyaların əsassız olduğunu qeyd edib. "AXCP üzvlərinin - Elxan Əliyev və Zamin Salayevin piket iştirakçısı kimi saxlanılaraq, 15 sutka həbs edilməsi ilə bağlı yayılan məlumatlar həqiqəti əks etdirmir". Bu barədə Bakı Şəhər Baş Polis İdarəsinin (BŞBPİ) Mətbuat xidmətindən bildirilib. Məlumata görə, hər iki şəxs piketdən əvvəl törətdikləri əməllərinə görə saxlanılıb: "Oktyabrın 8-də saat 01:50 radələrində Nərimanov rayonunda taksi kimi fəaliyyət göstərən "Ravon" markalı avtomaşın yol hərəkəti qaydalarını pozduğuna görə, yol polisi tərəfindən saxlanılıb. Yoxlama zamanı həmin avtomaşında sərnişin qismində olan - əvvəllər CM-in 221.2.2-ci maddəsilə (xuliqanlıq) məhkum olunan Zamin Salayev və əvvəllər CM-in 178.2.4-cü maddəsilə (dələduzluq) məhkum olunan Elxan Əliyev polisin fəaliyyətinə müdaxilə etməklə, polisin qanuni tələblərinə qəsdən tabe olmayaraq, mübahisəli vəziyyət yaratdıqlarına görə, Nərimanov RPİ 16-cı Polis Bölməsinə gətirilib. Əvvəllər məhkum olunan hər iki şəxs barəsində toplanmış materiallar əsasında İXM-in 535.1-ci maddəsilə inzibati xəta haqqında protokol tərtib edilərək, baxılması üçün Nərimanov Rayon Məhkəməsinə göndərilib. Məhkəmə tərəfindən inzibati xəta haqqında iş üzrə Elxan Əliyev və Zamin Salayevə 15 sutka inzibati həbs verilib. Onların siyasi mənsubiyyətinə, yaxud razılaşdırılan piketdə iştiraklarına görə polis tərəfindən saxlanılması ilə bağlı irəli sürülən iddialar əsassızdır".



Bir sözlə, araşdırmalar və rəsmi qurumun açıqladığı məlumat, bir daha təsdiq edir ki, "Milli Şura" rəhbərliyi, xüsusi ilə də, Ə.Kərimli və C.Həsənli küçədə pozuculuğa cəhdlər göstərməklə kifayətlənməyib, sosial şəbəkələrdə, xarici maraqlı dairələrin maddi və mənəvi dəstəyi ilə yayımlanan "internet" TV-lərə verdikləri açıqlamalarında öz bəd əməllərinə don geyindirməyə çalışırlar. Bu isə həyasızlıqdan başqa bir şey deyil.

***İ.ƏLİYEV***

# Paytaxta 300 yeni avtobusun gətirilməsi işləri noyabrda yekunlaşacaq



Bakıya 300 yeni avtobusun gətirilməsi işləri noyabrda yekunlaşacaq. Bu barədə Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri Mais Ağayev jurnalistlərə müsahibəsində deyib. O bildirib ki, dövlət tərəfindən avtobus parkının yenilənməsi üzrə işlər görülür. Artıq 300 avtobusun təxminən 210-u paytaxta gətirilib. Digərlərinin də gətirilməsi istiqamətində işlər davam edir. Gətirilən avtobuslar ilin sonunadək xəttə buraxılacaq.

# ABŞ-da "ən məhsuldar" seriyalı qatilin adı açıqlanıb

ABŞ Federal Təhqiqatlar Bürosu (FTB) ölkənin bütün tarixi ərzində "ən məhsuldar" seriyalı qatilin adını açıqlayıb. Bu barədə məlumat FTB-nin bəyanatında yer alıb. Məlumatda deyilir ki, 2012-ci ildən dəmir barmaqlıqlar arxasında olan Littl 40 ildə 93 qətl törətdiyini etiraf edib. Onun kriminal fəaliyyəti 1970-2005-ci illər arasında 50 məhkəmə işində araşdırılıb. Hakimiyyət orqanları bildiriblər ki, Littlin hədəfi əhalinin zəif təbəqəsinin nümayəndələri - çoxu fahişəliklə məşğul olan və narkotik qəbul edən qaradərili qadınlar olublar.

# "Nar" İT sahəsində fərqlənən tələbələrə dəstək oldu



Ölkədə elm və təhsilin inkişafına, xüsusən də informasiya texnologiyaları sahəsində ixtisaslı kadrların yetişdirilməsinə önəm verən "Nar", "ADA" Universiteti ilə əməkdaşlığını davam etdirir. Bu dəfə mobil operator akademik göstəricilərinə görə fərqlənən tələbələrə təqaüdlər verib. Oktyabrın 10-da "ADA"-da keçirilən "Akademik Mükəmməllik Günü"ndə Universitetin İnformasiya Texnologiyaları və Mühəndislik fakültəsinin tələbələri üçün nəzərdə tutulan "Lütfi Zadə" adına təqaüdü qazananların adları açıqlanıb. Qeyd edək ki, tələbələr növbəti semestrin təhsil haqqına 100% güzəşt əldə edirlər.

"Nar" və "ADA" Universiteti arasında uzunmüddətli əməkdaşlıq çərçivəsində nəzərdə tutulmuş layihələr arasında "ADA" Universiteti Fondu ilə əməkdaşlıq, Universitetin tələbə və məzunları üçün karyera və staj imkanlarının təklif edilməsi, ADA ixtisasartırma proqramlarına "Nar" əməkdaşlarının cəlb edilməsi də mövcuddur.

Ölkənin ən gənc mobil operatoru "Nar"ın elm və təhsilin inkişafına yönəlik sosial layihələri haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,6%-ni əhatə edir və 8000-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub.

# "AzerTelecom" Dövlət-Özəl sektor Tərəfdaşlığı Konsorsiumunda





"Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan "AzerTelecom" şirkətinin iştirakı ilə Dövlət-Özəl sektor Tərəfdaşlığı Konsorsiumu təsis edilib. Konsorsiumun təsis olunması haqqında müqavilə Bakıda keçirilmiş "3-cü Rəqəmsal Ticarət Forumu: İpək Yolunun Rəqəmsallaşması" adlı konfransda Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, PAŞA Bank, B.EST Solutions və magistral internet provayder "AzerTelecom" şirkəti arasında imzalanıb.

Konfransda çıxış edən "AzerTelecom" şirkətinin Baş direktoru Fuad Allahverdiyev Konsorsiumun dövlət və özəl sektor arasında davamlı inkişaf istiqamətində əməkdaşlıq üçün yeni imkanlar açacağını bildirib. "Konsorsiumun qurulması Azərbaycanın regionda Rəqəmsal Qovşaq olaraq mövqeyinin daha da gücləmməsi, rəqəmsal texnologiyaların müxtəlif sahələrdə tətbiqinin daha da genişlənməsinə töhfə verəcək. "AzerTelecom" şirkəti olaraq istər rəqəmsal infrastrukturdan istifadə, istərsə də Azərbaycanın Rəqəmsal Mərkəzə çevrilməsi üçün icra edilən "Azerbaijan Digital HUB" proqramı çərçivəsində Konsorsiuma dəstəyin verilməsinə hazırıq" - deyə Fuad Allahverdiyev qeyd edib.

"AzerTelecom" şirkətinin rəhbəri həmçinin şirkət tərəfindən Azərbaycanın regional rəqəmsal mərkəzə çevrilməsi üçün icra edilən "Azerbaijan Digital HUB" proqramı barədə danışıb. Bildirilib ki, proqramın məqsədi Azərbaycanın hazırki sahib olduğu enerji və nəqliyyat mərkəzləri statuslarına əlavə olaraq ölkəni Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və digər ətraf regionlar üçün rəqəmsal mərkəzə çevirmək, iri infrastruktur layihələrini icra etmək və son nəticədə Azərbaycanın İKT sisteminin inkişafı, rəqəmsal ekosistemin formalaşmasına nail olmaqdır. Dövlət-Özəl sektor Tərəfdaşlığı Konsorsiumunun yaradılması haqqında 4 tərəfli müqavilə ilk dəfə olaraq Asan İmza vasitəsilə onlayn olaraq imzalanıb. Qeyd edək ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təşkilatçılığı ilə keçirilmiş konfransda ABŞ, İsrail, Rusiya, Böyük Britaniya, Estoniya, Türkiyə, İspaniya və digər ölkələrdən 200-ə yaxın nümayəndə iştirak edib.

"AzerTelecom" Azərbaycanın, ümumilikdə isə Cənubi Qafqaz regionunun ən iri telekommunikasiya operatorlarından biridir və ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan "Bakcell" şirkətinin törəmə müəssisəsidir. "AzerTelecom" 2008-ci ildə təsis edilib və telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. "AzerTelecom" hazırda Azərbaycanın sahib olduğu Enerji və Nəqliyyat Mərkəzi statuslarına əlavə olaraq ölkənin Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramını icra edir. Proqramın reallaşması ölkənin Milli İT və Milli İnnovasiya strategiyası üçün mühüm təməl yaradır və rəqəmsallaşmanın sürətlənməsinə, rəqəmsal iqtisadiyyata çevik transformasiyaya, start-apların, İT arxitekturasının inkişafına mühüm töhfə verəcəkdir. Proqram ümumilikdə ölkənin İKT sisteminin ən qabaqcıl dünya standartları səviyyəsinə çatdırılması, ölkənin beynəlxalq reytinqlərdə daha öncül sıralara çıxmasına şərait yaradacaqdır.

# Təxribat törədən AXCP üzvləri sərxoş olublar

***Bəlli olduğu kimi, AXCP sədri Əli Kərimlinin rəhbərlik etdiyi AXCP üzvləri küçələrə çıxıb, polislə qarşıdurma yaratmağa cəhd etdilər. Bu isə, bütün siyasi prinsiplərin pozulmasına xidmət etdiyini göstərir. Diqqətçəkən məqam ondan ibarətdir ki, Ə.Kərimli piket çağırışı etsə də, özü gizlənməyə və sonradan sosial şəbəkələrə çıxıb, hay-küy qaldırmağa cəhdlər göstərdi. Söhbət etdiyimiz müsahiblərimizin, birmənalı mövqeyi ondan ibarət oldu ki, Ə.Kərimli pozuculuğa cəhd etməklə, birbaşa xarici qüvvələrin sifarişlərini, istək və tələblərini yerinə yetirməyə çalışıb, amma asayiş keşikçilər onun arzusunu gözündə qoyub.***



## AGAAMC-in sədri, fəlsəfə doktoru İlqar Orucov: **“Əli Kərimli sosial şəbəkələrdə növbəti hay-küy yaradır “**

- Əli Kərimli və “Milli Şura” adlı qaragüruhun piket tələbi reallaşandan sonra bir daha onların dağıdıcı mahiyyəti öz təsdiqini tapmış oldu. Birbaşa Ə.Kərimlinin təhriki və tapşırığı ilə küçələrə çıxan bir qrup AXCP-çi polislə bilərəkdən qarşıdurma cəhdi yaratmaqla, əsl mahiyyətini ortaya qoymuş oldu. Sual ortaya çıxır: sənin hansısa siyasi tələbin, çağırışın varsa və hakimiyyət onu səsləndirmək imkanını sizə yaradıbsa, onda polislə qarşıdurmaya getmək nəyə lazım idi? Deməli, bu qüvvələrin ciddi tələbləri yoxdur, sadəcə, bunları qarşıdurma yaratmaq maraqlandırır. İstəklərinə çata bilməyəndə, Ə.Kərimli sosial şəbəkələrdə növbəti hay-küy yaratmaq kampaniyasına başlayaraq, siyasi şou yaratmaq iddiasına düşür. Sözün varsa, nədən bəs, icazə verilən piketə özün gəlmirsən? Ə.Kərimli, bununla da, bəlli siyasi sifarişlərin və tapşırıqların icraçısı olduğunu bir daha sübut etməkdədir. Hər dəfə olduğu kimi, öz ampluasında və psixi eyforiya vəziyyətində olan bu adamın, əslində, nə istədiyi də məlum deyil. Sosial bazası olmayan bu adam ətrafında olan insanların bədbəxtliyi üzərində öz siyasi iddialarını gerçəkləşdirmək iddiasından da əl çəkmək istəmir. Anlamır ki, düçar olduğu uğursuzluğunun səbəbi özündədir. Onu da anlamır ki, bu ölkədə siyasi hakimiyyətin taleyini xalq müəyyənləşdirir və xalqdan dəstək almaq imkanı olmayan istənilən qüvvənin iddiası və istəyi iflasa məhkumdur.

## TOHGMİB-nın sədri Emin Həsənli: **“Əli Kərimli xarici qüvvələr tərəfindən maliyyələşir”**

- Bu gün, heç kəsə sirr deyil ki, müxalifət düşərgəsini təmsil edən şəxslər, o cümlədən, Ə.Kərimli xarici qüvvələr tərəfindən maliyyələşir. “Milli Şura”, AXCP və Müsavat yetkililəri maliyyələşmədən bəhrələnmək üçün hər vasitələrdən istifadə edirlər. Onlar xarici qüvvələrin sifarişlərini yerinə yetirməklə, ölkədə xoşagəlməz bir vəziyyət yaratmaq istəyirlər. Hər zaman xaricdəki məkrli qüvvələr Azərbaycan dövlətinin inkişafını istəməyib və bu inkişafa kölgə salmaq üçün də daxildə olan müxalifət təmsilçilərindən istifadə etməyə çalışıb. Yəni bu gün müxalifətin təxribatlara cəhd etməsinin arxasında xarici maraqlı qüvvələr dayanır. Onlara sual verməк lazımdır ki, siz nə qədər icazəli və icazəsiz aksiya keçirəcəksiz? Yəni istər icazəli, istərsə də icazəsiz aksiyalar keçirsəniz belə, keçirilən bu aksiyalara sizdən başqa heç kəs qatılmır. Çünki onların xalq tərəfindən heç bir dəstəyi yoxdur. Yaxşı olardı ki, müxalifət bu cür yersiz hərəkətlərindən əl çəksin.

## ADİİM-nin sədri “Avrasiya” İA-nın baş redaktoru Cavid Şahverdiyev: **“Kərimli cangüdənlərinin əhatəsində aradan çıxdı”**

- Əli Kərimlinin rəhbərlik etdiyi AXCP-nin bir qrup təxribatçı dəstəsinin və “Milli Şura” adlanan antimilli qüvvə üzvlərinin Bakı Şəhər İcra Hakimiyyətinin binası qarşısında icazəli aksiyada qarşıdurma yaratmağa cəhdləri onların və liderlərinin hansı xislətə və qüvvəyə itaət etdiyini bir daha sübuta yetirdi. Zatən, onların kimliyi və nə istədikləri bəllidir. Mən həmin aksiyanı sosial şəbəkələrdən izlədim, hətta radikallara xidmət edən mediada da görüntülərə baxdım. Ancaq onların maraqlarına xidmət edən kadrlar ictimailəşdirilmişdi. Polislər özlərinə “əl qatan” aksiya iştirakçılarını sakitləşdirmək, təhlükəsizliklərini qorumaq məqsədilə onları kənara çəkmək istəyirdilər. Piketçilər bu cəhdləri ictimailəşdirməklə, sübut etməyə çalışırlar ki, baxın, Azərbaycanda polis vətəndaşa zor tətbiq edir. Azərbaycanda demokratiya, söz və fikir azadlığı olmadığını iddia edənlər, qoy Avropaya nəzər salsınlar. Azərbaycandan qaçıb Avropanın “demokratiyasına” sığınanlar məgər oradakı aksiyalarda polislərin vətəndaşlara qarşı zor tətbiq etdiklərini görmürlər? Uzağa getməyək, Fransadakı mitinqlər, yüzlərlə insanın həbsi, gözyaşardıcı qazdan, dəyənəklərdən, atlardan istifadə edərək, aksiyaların dağıdılmasını bizim radikallar nə tez yaddan çıxarıblar? Rusiya, Gürcüstan, Ermənistan, İran, Yunanıstan, okeanın o tayında da, bu tayında da aksiyalar keçirilir və keçirilən hər bir aksiyada əgər təxribata yol verilirsə, təxribat xarakterli çıxışlar, hərəkətlər edilirsə, qarşıdurmaya cəhdlər olursa, təbii ki, polislər tərəfindən qarşısı alınır, özü də çox amansızlıqla. İkinci bir məqam isə, həmin aksiyada Əli Kərimlinin iştirak etməməsi və qaçıb gizlənməsi olub. 2005-ci il parlament seçkilərindən sonra “Azadlıq” siyasi blokunun Bakı şəhərində keçirdiyi davamlı mitinqləri yada salaq. Həmin hadisələrin şahidi olmuşam. Plagiat xarakterli “narıncılar” adı altında keçirilən mitinqlər keçmiş “Qələbə” kinoteatrının qarşısında olan meydanda keçirilirdi. Noyabrın 26-da keçirilən icazəli mitinqin sonunda AXCP sədri hamını oturaq aksiyaya çağırdı. Bu isə qarşıdurmaya xidmət edirdi. Axı aksiya başa çatıb, verilən vaxt bitib. Bunu bilə-bilə, Əli Kərimli hamını oturaq aksiyaya dəvət etdi. Bir çox partiya buna etiraz etsə də, gənclər aksiyaya qoşuldu, qarşıdurma yarandı və Kərimli cangüdənlərinin əhatəsində aradan çıxdı. İcazəsiz, oturaq mitinq keçirmək qərarından sonra Kərimli tərəfindən aldadılmış bir sıra şəxslər həbs olundular. Şahidi olduğum ikinci bir hadisəni xatırladım. Elə həmin ildə keçirilən mitinqlərdə Kərimli iştirak etmirdi, qərargahında pəncərədən qabağa verdiyi qadınların polislərlə qarşıdurmasını seyr edirdi... Əli Kərimli hər zaman bu taktikadan istifadə edib, gəncləri və qadınları qabağa verib. Bununla da onları qarşıdurma yaratmağa sövq edib. İcazəli aksiyada səsləndirilən şüarlara fikir verin - “Uşaqpulu verilsin!”, “Qarabağa azadlıq!” Radikallar başa düşmürlər ki, inkişaf edən ölkələrdə həmişə müxtəlif formalarda sosial problemlər mövcud olub. Avropanı Həmkarlar İttifaqlarının aksiyaları bürüyüb. Hökumətdən sosial azadlıq tələb edirlər, maaşlarının artırılmasını tələb edirlər və s. Sosial problemlərdən istifadə edib, qarşıdurma yaratmaq kimə sərf edir? Təbii ki, Kərimliyə. Sosial problemlərlə üzləşən vətəndaş problemin həlli ilə bağlı müvafiq dövlət orqanlarına müraciət etməlidir. Daha Bakı meriyasının qabağında qışqır-bağır salmaq olmaz. İşğal olunan torpaqlarımızın geri qaytarılması məsələsinə gəldikdə isə, siyasətdən, Azərbaycanın yerləşdiyi regionda cərəyan edən siyasi prosesləri izləyən şəxs anlamalıdır ki, Qarabağı azad etmək o qədər də asan deyil. Prezident İlham Əliyevin siyasəti torpaqlarımızı qansız və itkisiz geri almaqdır. “Kəssə hər kim tökülən qan izini, qurtaran dahi odur yer üzünü” (H.Cavid). Bu alınmazsa, ordumuz torpaqlarımızı geri qaytarmaq gücündədir. Ali Baş Komandanımız bunu dəfələrlə ermənilərə xatırladıb. Kərimlinin bir qrup təxribatçı üzvünün icazəli aksiyalardan belə sui-istifadə edib, qarşıdurma xarakterli çıxışları onların özlərinin yox, Qərbin sifarişidir. Yaxşı olardı ki, Kərimli özü həmin aksiyada iştirak edəydi.

**GÜLYANƏ**



## “BALA” MÜXALİFƏT “ANA” AXTARIŞINDA

**RƏFİQƏ**

***Doğrusu, dağıdıcı düşərgədə bu “ata”-”ana” davası hamını bezdirib. Nə qədər səviyyəsiz, mənasız axtarış. Ölüb yerə girmirlər. Ən maraqlısı isə, bu cür axtarışlar bəlkə də keçiriləcək hər hansı seçkilərərəfəsi olur. Neyləsinlər, 25 ildir ki, “müxalifətdəyik” deyirlər və “müxalifət” adı ilə mitinq-piketlər keçirirlər, özləri deyir, özləri də eşidir. Heç 100-150 nəfər yığa bilmirlər, günahı da qoyurlar iqtidarın boynuna ki, təyin olunan yer uzaqdır. Ay başınıza dönüb, şəhərdən çıxırsınız ki? Lökbatan nə vaxtdan uzaq olub? Dərdləri bəllidir. Çünki xalq onları 2003-cü ildən arxivə atıb.***

Belə olan halda fikirləşiblər ki, nə etsinlər, “varlıqlarını” nümayiş etdirmək üçün yenə “ata”-”ana” axtarışına çıxsınlar. Bu “axtarış” da, sözsüz ki, “spor”a gətirib çıxarmalıdır. Çünki illərdir ki, müxalifət partiyaları arasında hansının “ana müxalifət” partiyası olması ətrafında yaranmış söz-söhbətin, məntiqi nəticəsi olaraq, bələdiyyə seçkiləri ərəfəsi cəbhəçilərlə müsavatçılar əməlli-başlı bir-birlərinə, nə gəldi döşəyirlər. Biri deyir ki, “ana müxalifət” mənəm, o biri də deyir ki, yox, sən çox qələt edib belə iddiaya düşürsən, “ana müxalifət” mən özüməm. Mən isə, deyirəm, bu “ağılla” hələ çox axtarışda olacaqsınız. Çünki o müxalifət özünü “lider müxalifət” saya bilər ki, aparıcı, sosial elektoratı güclü, siyasi və sosial bazası möhkəm, hər an hakimiyyətə gələ bilmək qüdrətində olan müxalifət partiyası olsun. Amma kor-kor, gör də gördür ki, Azərbaycanda müxalifət partiyaları mövcud olsa da, onların içlərində, nəinki “ana” ya da ki, “ata”, heç “bala” müxalifət partiyası da yoxdur. Belə olan halda, AXCP və Müsavatın son anda bu məsələ ətrafında açıq savaşa girmələri də əbəsdir. Çünki onsuz da, qarşıdan gələn seçkilərin proqnozları onların xeyrinə doğru heç nə göstərmir və çünki bunu onların özləri də etiraf edirlər. Bildirirlər ki, Müsavat partiyası müxalifətdaxili inteqrasiyalarda maraqlı deyil və s.

Maraqlıdır, guya AXCP müxalifətdaxili inteqrasiyalarda maraqlıdırmı? Əgər maraqlıdırsa, nəyə görə Müsavatı ittiham edir? Bəlkə bunun yerinə, gedib Müsavatla birləşərdi? Amma ortada nə birləşmək var, nə də ki, inteqrasiya. Bax, onda deyərdim ki, ay maşallah, AXCP, həyatında bircə dəfə də olsa, demokratik davrandı və daxilində baş verən prosesləri etiraf etdi.

Bir də ki, AXCP-dən hər şeyi gözləmək olar. Yəni bir halda ki, partiyanın rəhbəri vaxtilə öz “liderinin” yeməyinə zəhər qatıb, ona sui-qəsd edibsə, bu günə kimi də mənəviyyatsız və satqınçılıq əməlləri ilə cinayətlər törədirsə, onu “kişi” cinsinə aid etməyin özü elə cinayətdir. Elə Müsavatın istər sabiqi olsun, istərsə də indiki rəhbərliyi olsun, heç onlar da az aşların duzları deyillər. A.Hacılı deyir ki, vaxtilə bütün seçkilərə qatılarkən, onun “lideri” İsa Qəmbər, yerdə qalan müxalifətçilərin, ümumilikdə, topladıqları səslərdən çox səs toplayıb (?!- R.H.). Yaxşı, ay Arif “bəy”, əgər sənin “ana müxalifətçi lider”in vaxtilə hamıdan çox səs toplayıbsa, onda niyə onun “ana müxalifətçiliyi” digərləri tərəfindən qəbul olunmur? Məncə, bir dəfə də aksiomalı, arqumentli fikir bildirmək lazımdır, iddialı yox!

Göründüyü kimi, vəziyyət yaman xarabdır. Özü də seçkilər ərəfəsində belə vəziyyətin yaranması hər iki partiyanın müstəqil gələcəyini “podvopros” qoyur. Necə ki, “spor”dan dolayı... Qalır bircə məsələ - “BALA” MÜXALİFƏT məsələsinə ki, qoy onu da “cırtdan” partiyalar öz aralarından seçsinlər. Ancaq “anaları” bəlli olduqdan sonra...

# Qlobal transformasiya və insan haqları

***Müasir qlobal transformasiya prosesini insan hüquqları ideyasının reallaşması baxımından iki (müsbət və mənfi) aspektdən qiymətləndirmək mümkündür. Bir tərəfdən, qloballaşma demokratiyanın universal dəyər kimi yayılmasına və qərarlaşmasına şərait və imkan yaradır. Deməli, insan hüquq və azadlıqlarının da təminatlanmasında öz müsbət təsirini göstərir. Mobil informasiya-kommunikasiya əlaqələri, bu mənada, xüsusi əhəmiyyət daşıyır.***

Eyni zamanda, qloballaşma, bir çox mütəxəssislərin qeyd etdiyi kimi, dünyada ədalətsizliyi, qeyri-tarazlığı, kasıb və varlı dövlətlər arasında qütbləşməni artırmaqla, həm sosial-iqtisadi, həm də geosiyasi nizamsızlığa səbəb olmuşdur ki, bu da yuxarıda vurğuladığım insan və insanilik böhranını daha da dərinləşdirmişdir. Bura insanların fəaliyyət məqsədləri və nəticələri, fərdi və ictimai maraqları, təbii və süni həyat tərzləri arasındakı kəskinləşən ziddiyyətləri, ümumbəşəri və etno-milli, irsi-tarixi dəyərlər nisbətində ortaya çıxan qarşıdurmaları, təbiət-insan münasibətlərindəki disharmoniyanı, identikliyin itirilməsi təhlükəsindən yaranan lokal və irimiqyaslı təhdidləri, mədəniyyətlərin homogenləşməsinə, antimilli xarakter almasına yönəlmiş cəhdləri və onlara qarşı güclənən fəallaşmanı daxil etmək düzgün olardı.

Bəşəriyyət, bəzi mütəxəssislərin və antiqlobalist mövqeli şəxslərin fikrincə, artıq ciddi surətdə özünüməhv təhlükəsi ilə üzləşmişdir. Qloballaşan dünya sərvətlərin istehsalı ilə istehlakı arasındakı uyğunsuzluğu, qeyri-rasional, ədalətsiz bölgü və mənimsəmə səbəbindən yaranan böyük itkləri, əyintiləri aradan qaldırmağa qadir olmamış, əksinə, bu təzadları daha da şiddətləndirmişdir. Bir çox ölkələrin iqtisadi və sosial problemləri həll olunmamış qalmış, təhlükəli dərəcədə mürəkkəbləşmişdir. Kəmiyyət və keyfiyyət cəhətdən, maddi sərvətlərin artmasına və təkmilləşməsinə baxmayaraq, qloballaşan dünyada ölkələr, xalqlar və insanlar arasındakı münasibətlərdə gərginlik, qarşıdurma güclənmiş, harmonik və stabil inkişafın dayaqları xeyli zəifləmişdir. "Soyuq müharibə" qurtarsa da, beynəlxalq münasibətlərə dair yeni "davranış məcəlləsi" ortaya qoyulmamış və bu səbəbdən də, universal dəyər olan insan hüquqları sahəsində qlobal miqyaslı problemlər yaranmışdır. Son onilliklərdə qəbul edilmiş beynəlxalq sənədlərin ortada olmasına baxmayaraq, insan hüquqları məsələsinə ikili standartlar təmənnalı münasibət özünü göstərməkdədir. İnsan haqları ilə bağlı bir sıra mühüm məsələlərə gəldikdə, ABŞ və Avropa İttifaqı ölkələri özləri üçün rəva bilmədiklərini başqaları üçün məqbul sayırlar. Beləliklə də, faktiki, olaraq, dünyada tüğyan edən haqsızlıqlara və ədalətsizliklərə dəstək vermiş olurlar. İnsanların haqqı, bir qayda olaraq, iqtisadi, geosiyasi və hətta şəxsi maraqlara qurban verilir.

Müasir dövrdə qloballaşma "yeni reallıq" kimi özünü göstərir. Özünümüdafiə instinktinə malik hər bir cəmiyyət bu "yeni reallığın" tələbləri və xüsusiyyətləri ilə hesablaşmalı olur. Bu fikir əksər müəlliflər tərəfindən vurğulanır. Vəziyyətin təzyiqvi cəhəti bundadır ki, hər bir dövlət qloballaşma və lokal məhəlli proseslərin ahəngdar sintezini təmin etməyə qadir olan inkişaf modelini işləyib- hazırlamağa məcburdur. Söhbət hər bir ölkənin özünün transformasiyasının qloballaşma modelini müəyyənləşdirməsindən gedir. Vaxtilə, 7 sentyabr 2001-ci ildə, Nyu-York şəhərində Minilliyin Zirvə Görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev öz çıxışında demişdir: "Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyili qloballaşmadır. Bu mürəkkəb, heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Qlobal transformasiya dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir." Həmin zirvə toplantısında Ulu Öndər Heydər Əliyev bu mühüm fikirləri də vurğulamağı vacib bilmişdir: "Beynəlxalq hüququn prinsipləri və normalarının aliliyi, dəyişikliklərin təkamül xarakteri, tərəfdaşlıq və daha çox inkişaf etmiş dövlətlərin daha az inkişaf etmiş dövlətlərə köməyi, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşı, milli fərqlərin də qəbul olunması bu prosesin müəyyənedici istiqamətləri olmalıdır. Demokratik inkişafın gücü onun rəngarəngliyidir."

Yeni minillikdə qloballaşmanın dünya təfəkkürünün və tərəqqinin yeni, öncül istiqamətinə çevrildiyini qeyd edən akademik R.Mehdiyev yazır: "Qloballaşmanın milli mərkanlara təsiri prosesində dövlətin daxili siyasi inkişafı böyük əhəmiyyət kəsb edir. İnteqrasiya proseslərinin təsiri yeni qavrayış və təfəkkür tərzi formalaşdırır, sonra isə yeni dövrün bu komponentlərinə həyat verir. Davranışın yeni stereotipləri və formaları meydana gəlir." Həmin məqalədə diqqəti dini dəyərlərin ictimai həyatda roluna, habelə, dinin böyük mənəvi təsir gücündən sui-istifadə hallarına qarşı mübarizənin əhəmiyyəti məsələlərinə yönəldən müəllif müasir demokratik cəmiyyətdə dini etiqad azadlığının hər bir vətəndaşın konstitusiya hüquqlarının ayrılmaz tərkib hissəsi olduğunu göstərərək vurğulayır: "Yaradanın qüdrətinə inam insanın mənəvi-əxlaqi, psixoloji ovqatını şərtləndirir, dünyagörüşünü kamilləşdirir, təfəkkür tərzini və formasını tənzimləyir."

Aparıcı tədqiqatçıların qeyd etdikləri kimi, qloballaşma yeni reallığın başlıca daşıyıcısı rolunda çıxış edir. O, bəzi məqamarına görə, ayrı-ayrı xalqların və xırda dövlətlərin əleyhinə, R.Mehdiyevin təbirincə desək, dünya "çempionlarının" xeyrinə işləsə də, beynəlxalq bir prosesdir. Ümumdünya informasiya-kommunikasiya şəbəkələrini yaratmış bəşəriyyət insanı, xalqları hansısa böyük, mürəkkəb və ziddiyyətli prosesin iştirakçısına çevirmişdir. Demək olar ki, bütün ölkələr qloballaşmanın "əsiridirlər". Hər hansı bir ölkəyə münasibətdə qlobal transformasiya dinamik bir "meydan" kimi özünü göstərir, bu "meydan" xüsusi energetikası və immanent inkişaf parametrləri ilə hər bir ölkənin transformasiya vektoruna düzəlişlər edir. Bu düzəlişin xarakteri, nəinki qloballaşmanın xüsusiyyətlərindən, eyni zamanda, konkret cəmiyyətin özünün start vəziyyətindən asılıdır: qloballaşma hər bir cəmiyyətdə, onun inkişaf dərəcəsinə uyğun olaraq, tərəqqi edir, güclənir, hər bir ölkənin və hər bir cəmiyyətin ənənələri və mədəniyyəti bu prosesdə təzahür edir. Ölkələrin sosiai-mədəni, tarixi-irsi müxtəlifliyi qloballaşmaya müxtəliflik amili gətirir.

Qlobal transformasiya dövlətlər arasındakı sədləri dağıdaraq cəmiyyətdaxili sosial, milli özünəməxsusluğa təsir göstərir, onu xüsusi dünyagörüşü çərçivəsində məhdudlaşdırır. Müxtəlif dərəcə və formalarda milli mədəniyyət və ənənələrin öncüllüyünü dağıdır, özünəməxsusluqdan uzaqlaşmanı gücləndirir, habelə, qərbləşmə və avropalaşma şüarı altında yeni-yeni mədəniyyət surroqatları ortaya çıxarır. Bir sözlə, öz müsbət tərəfləri ilə yanaşı, mənfi cəhətlərini də göstərməkdədir.

Qlobal transformasiya mahiyyətinin bu və ya digər şəkildə başa düşülməsi ölkə tərəfindən öz qloballaşma modelinin hazırlanmasında, mühüm rol oynayır. Başqa sözlə, hər bir ölkə özünəməxsus qloballaşma inkişafının ssenarisinin hazırlanmasına qloballaşmanın və onun perspektivlərinin adekvat mənzərəsinin yaradılmasından sonra başlaya bilər. Əks-halda, qəflət situasiyalardan, təhlükəli anlardan, səmərəsizlik və itkilərdən sığortalanmaq mümkün deyil. Hər şeydən əlavə, milli kimlik və milli suverenlik məsələsində xoşagəlməz meyllər ortaya çıxa bilər.

Qlobal transformasiya münasibətdə baxışlar bir-birindən xeyli fərqlənir, qiymətlər isə, bəzən, bir-birini təkzib edir. İndiyə qədər vahid nöqteyi-nəzər yoxdur, qloballaşmanın keyfiyyət tərifini və aksiologiyasını müəyyən edən əsas prinsiplərinə və mexanizmlərinə aid bir sıra suallara tam və qəti cavablara malik deyilik. Bəziləri belə hesab edirlər ki, bu, beynəlxalq vətəndaş cəmiyyətinin ilk müjdəsidir və dünyada yeni eranın və demokratikləşmənin başlanğıcıdır. Digərlərinin nəzərində qloballaşma Amerikanın iqtisadi və siyasi hegemonluğu deməkdir. Bu hegemonluğun nəticəsində isə, bütün dünyada mədəniyyət həmcins, yekrəng olacaq və bir növ Disneylendin (və yaxud "mədəni Çernobıl") metastazları kimi bir şeyə çevriləcək. Bəzi alimlər qloballaşmanın prinsipial cəhətdən yeniliyini inkar edir və bu hadisəni keçmişin müasir zəmanədə özünəməxsus "təkrarı" hesab edirlər. Onlara görə, qloballaşma prinsipcə mütləq yeni hadisə deyildir, bəşər tarixinin müxtəlif dövrlərində müxtəlif formalarda mövcud olmuş və inkişaf etmişdir. Akademik R.Mehdiyev də analoji mövqedən çıxış edir: "Qloballaşma prosesi yeni hadisə deyildir. Bəşəriyyət tarix boyu həmişə inteqrasiyaya, vahid siyasi, iqtisadi, yaxud sosiomədəni məkanın bir hissəsi olmağa can atmışdır."

Qlobal transformasiya bəşəriyyətin keyfiyyətcə yeni və bu mənada, nadir, unikal hadisə-prosesi olduğunu söyləyən alimlərdən A.B.Veber yazır: "Bəzən deyirlər ki, dünya həmişə qlobal olmuşdur. Əlbəttə, əgər söhbət fiziki dünyadan gedirsə. Lakin bəşər dünyası belə olmamışdır. Mənim fikrimcə, qloballaşma onu göstərir ki, bütün dünya ən yeni kommunikasiya və informasiya texnologiyalarının əsasında iqtisadi-maliyyə, ictimai-siyasi və mədəni əlaqələrin açıq sisteminə cəlb olunur."

Bu baxışda, örtülü şəkildə "qlobal olan" və "qloballaşma" anlayışlarının müxtəlif semantik izahı nəzərdə tutulur. "Qlobal olan" anlayışının mənasında, planetar miqyaslı kəmiyyət fenomenləri assosiasiya təşkil edən ənənəvi coğrafi (necə deyərlər, fiziki) təsəvvürlər nəzərə çarpacaq dərəcədə üstünlük təşkil edir. V.Tolstıx qloballaşmadan bəhs edərkən yazır: "Sosiallığın və dünya durumunun yeni tipinin təşəkkül tapması faktını qeyd etmək lazımdır. Bu fakt, demək olar ki, bütün formaları və parametrləri və hazırda mövcud olan sosiumdan və dünya nizamından fərqlənməni göstərir."

Tanınmış mütəxəssis, Nobel mükafatı laureatı C.Stiqlits belə hesab edir ki, "qloballaşma ilə qarşılıqlı asılılıq ortaya çıxır və bu şəraitdə bizim hamımıza təsir göstərən bütün sahələrdə qərarların birgə qəbul edilməsi zərurəti yaranır."

Dəqiqləşdirmək istərdim ki, burada qarşılıqlı asılılığın prinsipcə yeni məzmun və formasından söhbət gedir. Dünyanın məşhur maliyyəçilərindən olan C.Soros formalaşmaqda olan yeni tip qarşılıqlı asılılıqdan, yeni dünya nizamı və yaşayış məkanı haqqında danışarkən, "qlobal birlik" anlayışından istifadə edir. Onun fikrincə, qloballaşma meqacəmiyyətə, yeni əsaslar üzrə qurulacaq "qlobal birliyə" doğru yol açır. Alman tədqiqatçısı U.Bek isə göstərir ki, "biz artıq dünya cəmiyyətində yaşayırıq, o mənada ki, qapalı məkanlar haqqında təsəvvürlər yalana və mənasız bir şeyə çevrilmişlər."

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs





## YAP Tərtər rayon təşkilatının sıraları getdikcə güclənir

Dünən YAP Tərtər rayon təşkilatının qərargahında partiya sıralarına yeni qəbul olunan şəxslərlə görüş keçirilib. Görüşdə çıxış edən rayon təşkilatının sədri Ramiz Şabanov Yeni Azərbaycan Partiyasının yaranmasından və keçdiyi möhtəşəm yolun tarixindən, partiyamızın yaradıcısı, müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından, məhz Ulu Öndərin zəngin təcrübəli və siyasi uzaqgörənliyi sayəsində, doğma Azərbaycanımızın parçalanıb məhv olmaqdan xilas edildiyini, ölkəmizdə qarşıdurmalara, anarxiyaya, tənəzzülə son qoyularaq, inkişafın əldə edildiyini vurğulayıb: “21 noyabr 1992-ci ildə müxalif partiya kimi yaradılan YAP Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında qısa bir zamanda, özünün konstruktiv təklifləri ilə ölkənin müstəqilliyinin qorunmasına yönəlmiş siyasətin xalq tərəfindən dəstəklənməsi sayəsində, 1995-ci ildə keçi-



rilən parlament seçkilərində mütləq qələbə qazanaraq, hakim və ümumxalq partiyasına çevrildi”.

R.Şabanov, həmçinin, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi altında dövlətimizin daxili və xarici siyasətinin uğurlarından, vətəndaşlara göstərilən hərtərəfli qayğıdan, məcburi qaçqın və köçkünlərimizin sosial, mənzil, məişət şəraitlərinin yaxşılaşdırılmasından, dövlət və özəl sektorlarda işləyənlərin əmək haqlarının, pensiyaçı və tələbələrin təqaüdlərinin, bu kimi bir sıra sosial proqramların uğurla həyata keçirilməsindən danışıb: “Bu gün partiyamızın sıralarına vətənpərvər, dövlətçiliyimizə sadiq, Ulu Öndər Heydər Əliyev ideyalarını dərindən mənimsəyən insanlar, xüsusilə, gənclər daxil olmaqdadır. Bunun bariz nümunəsi bugünkü görüşdə iştirak edən yeni partiya üzvlərinin tərkibinin çox hissəsinin gənclərdən ibarət olmasıdır”.

Görüşdə çıxış edən gənc partiya üzvlərindən Bəhruz Köçərli, Əsmər Həsənova, Pərvanə Əliyeva, Gülnarə Həsənova, Qəzənfər Mehdiyev və başqaları çıxış edərək, ölkəmizin müstəqilliyi uğrunda davamlı mübarizə aparan ümumxalq partiyası olan YAP sıralarına üzv olmaları ilə fəxr etdiklərini, ölkə başçısı İlham Əliyevin daxili və xarici siyasətini, birmənalı tərzdə dəstəkləyərək, Azərbaycanın daha da qüdrətli dövlətə çevrilməsi yolunda görülən işlərdə fəal olacaqlarını bildiriblər.

Sonda partiya sıralarına yeni qəbul olunanlara üzvlük vəsiqələri təqdim edilib.

***RƏFİQƏ HÜSEYNOVA***

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin V kurs tələbəsi Mahmudova Jalə Akif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya ixtisası üzrə IV kurs tələbəsi Məmmədova Səbinə Pərviz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Sosial işixtisası üzrə II kurs tələbəsi Mehtiyeva Şəfa Fəxrəddin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## YAP Binəqədi rayon təşkilatı partiya fəalları ilə görüş keçirib



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının Binəqədi rayonu, Heydər Hüseynov küçəsi-19 ünvanlı ərazi ilk partiya təşkilatında partiya fəalları ilə görüş keçirilib. Görüşdə ilk olaraq, Dövlət Himni səsləndirilib.

Görüşü giriş nitqi ilə açan Bakı Humanitar Kollecin direktoru Vaqif Əmiraslanov bildirdi ki, Yeni Azərbaycan Partiyası ölkəmizin avanqard və mütəşəkkil siyasi partiyası olaraq, öz nüfuzunu qoruyub-saxlayır, regionun ən böyük siyasi partiyası dünya ölkələrinin iqtidar partiyaları ilə sıx əməkdaşlıq edir: “Bu gün bu partiya sıralarında insanların təmsil olunması və üz tutanların sayının durmadan artması dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin uğurlu siyasətinin məntiqi nəticəsidir”.



Tədbirdə YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov çıxış edərək qeyd etdi ki, rayon təşkilatı, mütəmadi olaraq, partiya üzvləri ilə görüşlər keçirir: “Bu cür görüşlərin keçirilməsində əsas məqsəd partiya üzvləri ilə sıx ünsiyyətin qurulması, onların fikir və təkliflərinin öyrənilməsi, ictimai-siyasi proseslərdə fəal iştirakını təmin etməkdir”. R.Göyüşov ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasətdən bəhs etdi. Dünyanın aparıcı, sivilizasiyanın beşiyi adlandırılan ölkələrdən olan Suriya və İraqda hökm sürən dəhşətli vəziyyətdən danışdı. Demokratiya adı altında, bir sıra güclü dövlətlərin öz ambisiyaları ucbatından, törətdikləri hadisələrə nəzər saldı. Azərbaycanımızı qorumağın, onun müstəqilliyinin və suverenliyinin daimi və əbədi olmasının hər bir vətəndaşın ən vacib və müqəddəs borcu olduğunu diqqətə çatdırdı. İnsanlarımızı və partiya üzvlərini bu cür siyasi situasiyalarda daha da ayıq-sayıq olmağa, dövlət başçısının ətrafında sıx birləşməyə çağırdı.

Görüşdə, həmçinin, təşkilati məsələlər müzakirə edilib və qərarlar qəbul olunub. Qərarlara əsasən, ərazi ilk partiya təşkilatına yeni sədr və müavinlər, qadınlar şurasına sədri və kollec üzrə koordinator və müavinləri seçilib.

Ərazi ilk partiya təşkilatına yeni seçilən sədr müavini Talıb Zülfiyev çıxış edərək, YAP sıralarında təmsil olunmağın böyük etimad olduğunu və bu etimadı doğruldacağını söyləyib.

Görüş bədii hissə ilə davam etdirildi. Bədii hissədə Bakı Humanitar Kollecin Cahangir Cahangirov adına xor kollektivi, kollecin müəllimləri Cabir Həsənov və Tuqay İsmayılovun ifaları ilə ilə yekunlaşdı.

***Zümrüd BAYRAMOVA***

## DİN: Ötən gün törədilmiş 24 cinayətin üstü “isti izlər”lə açılıb




Respublikanın daxili işlər orqanları ötən gün ərzində törədilmiş 24 cinayətin üstünü “isti izlər”lə açıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış yeddi cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 24 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 1 nəfər, borclu şəxs qismində axtarılan 3 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş iki ağır yol-nəqliyyat hadisəsi nəticəsində iki nəfər ölüb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 11, qanunsuz saxlanılan silah-sursatla bağlı 1 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 41 nəfər saxlanılıb.

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**